

# Yaşıl evlərimiz...

6

Səs
№ 149 (6590) 20 avqust 2022-ci il. Qiymәti 60 qәpik

# Qardaşlıq və birliyin simvolu: İslam Həmrəyliyi Oyunları

3



*İdman və bədən tərbiyəsi hər bir ölkənin beynəlxalq aləmdə tanınması, nəslin sağlam inkişafı üçün önəmli vasitələrdən biri olduğundan, bu sahəyə dövlət tərəfindən böyük diqqət ayrılıb.*

# ERMƏNİSTAN: Dost üzünə ağ, erməniyə dağ olan ölkə

5




## Tarixi yaddaşında zəngin irsimizi qoruyan Şuşa




8

## Sosial sığortalardan hansı hallarda yararlana bilərik?




10

## "O gözəl yerləri bərpa edəcəyik"



10

## Boşanmada uşaq kimə verilməlidir?

11



Valideynlərinin mübahisələrinə şahid ola... və bunu davamlı olaraq ya... şayan uşaqlarda depressiya, əhval-ruhiyyə pozğunluğu, intihar, təşviş...

## Mürəbbələrin şəfaverici xüsusiyyətləri

Yay aylarında evdar xanımlar qışa hazırlıq üçün mürəbbə tədarük edirlər. Hazırlanan mürəbbələr içərisində moruq, heyva və zoğal mürəbbəsi şəfaverici xüsusiyyətlərinə görə seçilir. Onu da qeyd edək ki, xroniki qaraciyər və öd kisəsi xəstəliyi olanların həmin mürəbbələrdən az istifadə etməsi məsləhət görülür.

16



16

## Gombul - HEKAYƏ



*Bu hekayədə uşaqlığımın bir acı xatirəsini qələmə aldım. Bəlkə də bir çoxlarınızın gözləri dolacaq, qəhər sizi boğacaq, amma sizi inandırıram ki, buna dəyər.*

## Ajda Pekkan etiraf etdi

*İllərdir həm gündəlik geyimi, həm də səhnə tərzi ilə adından söz etdirən Ajda Pekkanın qarderobunda tarixçə olduğu ortaya çıxıb.*



## "Heç bir cinayət cəzasız qalmayacaq"

14

*"Laçın şəhərinin Zabux və Sus kəndinin avqustun 25-ə kimi boşaldılması gündəmdədir".*

# Qardaşlıq və birliyin simvolu: İslam Həmrəyliyi Oyunları

## *Azərbaycan idmançıları V İslam Həmrəyliyi Oyunlarını 99 medalla başa vurdu*



İdman və bədən tərbiyəsi hər bir ölkənin beynəlxalq aləmdə tanınması, nəslin sağlam inkişafı üçün önəmli vasitələrdən biri olduğundan, bu sahəyə dövlət tərəfindən böyük diqqət ayrılıb. Azərbaycanın idman sahəsində qazandığı nailiyyətlər, dünya və Avropa çempionatlarında idmançılarımızın qazandığı medallar və mükafatlar ölkəmizin beynəlxalq idman təşkilatlarında da mövqeyinin xeyli güclənməsinə səbəb olub və Azərbaycanı dünyaya əsl idman ölkəsi kimi tanıdıb. Azərbaycan dünyanın idman arenasında artıq özünə layiqli yer tutub. İstər beynəlxalq yarışlarda iştirakı, istərsə də beynəlxalq yarışlara ev sahibliyi etməsi ilə.

Türkiyənin Konya şəhərində keçirilən V İslam Həmrəyliyi Oyunlarında iştirak edən 54 ölkənin təmsilçiləri sırasında Azərbaycan da yer almışdır. Konya 2022-ci ilin ən böyük idman yarışına yüksək səviyyədə ev sahibliyi etdi. Qədim tarixi olan bir şəhər müxtəlif mədəniyyətlərin qovuşduğu məkanda hər kəs özünün öz torpağındakı kimi hiss etdi. Qardaş şəhərdə mübarizə aparıldı. İslam həmrəyliyi, qardaşlıq və birliyin nümunəsi idi bu. Avqustun 9-da Türkiyənin Konya şəhərində V İslam Həmrəyliyi Oyunlarının möhtəşəm açılış mərasimində Azərbaycan Prezidenti İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın iştirakları böyük rəğbətlə qarşılandı.

Avqustun 9-da Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva V İslam Həmrəyliyi Oyunlarında ölkəmizi təmsil edən idmançılarla görüşü zamanı dövlət başçısı çıxışında bildirdiyi kimi, ”Bizim idmançılar artıq bütün beynəlxalq yarışlarda öz gücünü təsdiqləmişlər. Azərbaycan bu gün dünyada güclü idman ölkəsi kimi tanınır və bizim qələbələrimiz həm Olimpiya Oyunlarında, həm də dünya, Avropa çempionatlarında artıq adi hala çevrilib. Azərbaycan azarkeşləri də bir növ buna öyrəşiblər”.

### HEÇ KƏS MƏĞLUB DEYİL, QAZANAN QARDAŞLIQ, BİRLİK VƏ BƏRABƏRLİK OLDU






Avqustun 9-18-də keçirilən V İslam Həmrəyliyi Oyunlarında 54 ölkədən 4 mindən çox atlet idmanın 24 növü üzrə 483 dəst medal uğrunda mübarizə apardı. Azərbaycanı İslamiadada 281 idmançı təmsil etdi. Onlar ağır atletika, atıcılıq, atletika, basketbol 3x3 (qadınlar və kişilər), cüdo, futbol, güləş, gimnastika, aerobika, bədii gimnastika, həndbol (qadınlar və kişilər), karate, kikboksinq, qılıncoynatma, oxatma, para-oxatma, para-atletika, para-üzgüçülük, stolüstü tennis, taekvondo, velosiped, voleybol (qadınlar və kişilər) və üzgüçülük yarışlarında güclərini sınadılar. Azərbaycan idmançıları V İslam Həmrəyliyi Oyunlarını 99 medalla 4-cü sırada yer aldı. Medallardan 29-u qızıl, 36-sı gümüş, 34-ü isə bürüncdür.

Xatırladaq ki, ”Bakı-2017”də 54 ölkədən 3 mindən çox atlet idmanın 24 növü üzrə keçirilən yarışlarda 269 dəst medal uğrunda mübarizə aparmışdı. Bu Oyunlara 425 atletlə qatılan Azərbaycan 162 medalla (75 qızıl, 50 gümüş və 37 bürünc) birinci olmuşdu. Türkiyə ikinci (195 medal), İran üçüncü (98 medal), Özbəkistan dördüncü (63 medal), Bəhreyn (21 medal) isə beşinci yerdə qərarlaşmışdı.

Əlbəttə ki, bu yarış islam həmrəyliyinin, birliyinin nümayişidir. V İslam Həmrəyliyi Oyunlarının bağlanış mərasimində Türkiyənin gənclər və idman naziri Mehmet Muharrem Kasapoğlunun qeyd etdiyi kimi, ”Oyunlar bundan sonra da böyük həyəcan və coşqu ilə keçiriləcək. Bu yarış ölkələr arasında qardaşlığın möhkəmlənməsinə təkan verəcək. Bu Oyunlarda heç kəs məğlub deyil, qazanan qardaşlıq, birlik və bərabərlik oldu”.

### AZƏRBAYCANIN MÜSƏLMAN DÜNYASININ HƏMRƏYLİYİNƏ TÖHFƏSİ

İslam Həmrəylik Oyunlarının tarixinə nəzər salsaq görərik ki, dörd ildən bir keçirilən beynəlxalq idman tədbiri İslam Əməkdaşlıq Təşkilatına üzv olan ölkələrdən idmançılarının iştirakı ilə keçirilir. Onu da qeyd edək ki, Təşkilata üzv olan ölkələrin qeyri-müsəlman vətəndaşlarına da Oyunlarda iştirak etməyə icazə verilir.

İlk dəfə bu Oyunlara Səudiyyə Ərəbistanı ev sahibliyi etsə də, sonradan estafet dəyişib. Oyunlar 2013-cü ildə İndoneziyada yüksək səviyyədə keçirilib, Azərbaycan 2017-ci ildə Bakıda İslam Həmrəyliyi Oyunlarına böyük müvəffəqiyyətlə ev sahibliyi edərək müsəlman dünyasının həmrəyliyinə töhfəsini verib. İslam Həmrəyliyi Oyunlarında Azərbaycan yüksək təşkilatçılıq qabiliyyətini dünyaya bir daha göstərdi. 2017-ci il mayın 12-dən 22-dək Bakıda keçirilən IV İslam Həmrəyliyi Oyunları Azərbaycan, eləcə də bütün İslam dünyası üçün mötəbər idman təntənəsi kimi nüfuz qazandı. ”Bakı-2017” IV İslam Həmrəyliyi Oyunları Xəzərdən başlayan su səyahəti ilə start götürdü. Su aydınlıq, xeyir və bərəkət, həyat mənbəyidir. Elə həmin il, yəni, 2017-ci ilin ölkəmizdə ”İslam Həmrəyliyi İli” elan edilməsi təbii ki, təsadüfi deyildi. Prezident İlham Əliyevin bu barədə Sərəncamında da qeyd olunduğu kimi, Azərbaycan uzun əsrlərdən bəri İslam sivilizasiyasının əsas mərkəzlərindən biri olub.

### ”BİZ ARTIQ MÜZƏFFƏR XALQIN NÜMAYƏNDƏLƏRİ, QALİB ÖLKƏNİN NÜMAYƏNDƏLƏRİ KİMİ BU OYUNLARDA İŞTİRAK EDƏCƏYİK”

Azərbaycan idmançıları İslam Həmrəyliyi Oyunlarında ilk dəfə olaraq qalib ölkənin idmançıları kimi çıxış etdilər. ”Biz artıq müzəffər xalqın nümayəndələri, qalib ölkənin nümayəndələri kimi bu Oyunlarda iştirak edəcəyik” - deyən Prezident bildirib ki, döyüş meydanlarında əldə edilmiş Qələbə idman yarışlarında da özünü əks etdirəcək  Əminəm ki, hər zaman olduğu kimi, Azərbaycanın idman bayrağı, idman şöhrətimiz yüksəklərdə olacaq və siz Vətənə qələbələr, müvəffəqiyyətlər, uğurlarla qayıdacaqsınız”. Belə də oldu. İdmançılarımız yarışda 99 medal qazanaraq idman tariximizə daha bir səhifəni əlavə etdilər.

Xatırladaq ki, VI İslam Həmrəyliyi Oyunları 2025-ci ildə Kamerunun paytaxtı Yaundedə keçiriləcək.

***Nəzakət***

## RƏSMİ XRONİKA

Prezident İlham Əliyev Elxan Poluxovun Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında və eyni zamanda Ekvador Respublikasında, Qayana Kooperativ Respublikasında, Surinam Respublikasında, Trinidad və Tobaqo Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.

* * *

Dövlət başçısının digər sərəncamı ilə Elxan Polux oğlu Poluxov Azərbaycan Respublikasının Karib Hövzəsi Ölkələri Birliyi yanında səlahiyyətli nümayəndəsi vəzifəsindən də geri çağırılıb.

* * *

Eyni zamanda Prezident İlham Əliyev Rəşad İntiqam oğlu Novruzun Azərbaycan Respublikasının Braziliya Federativ Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Rəmzi Teymurovun Azərbaycan Respublikasının Koreya Respublikasında və eyni zamanda Monqolustanda fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyevin digər sərəncamı ilə Rəmzi Kazım oğlu Teymurov Azərbaycan Respublikasının Argentina Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilib.

* * *

Prezident İlham Əliyev Rəşad Fəxrəddin oğlu Aslanovun Azərbaycan Respublikasının Argentina Respublikasında və eyni zamanda Paraqvay Respublikasında, Boliviya Çoxmillətli Dövlətində, Çili Respublikasında, Uruqvay Şərq Respublikasında fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Elxan Cahangir oğlu Qəhrəmanın Azərbaycan Respublikasının Küveyt Dövlətində fövqəladə və səlahiyyətli səfiri vəzifəsindən geri çağırılması haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Nəsimi Məhəmmədəli oğlu Ağayevin Azərbaycan Respublikasının Almaniya Federativ Respublikasında fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

* * *

Prezident İlham Əliyev Emil Zülfüqar oğlu Kərimovun Azərbaycan Respublikasının Küveyt Dövlətində fövqəladə və səlahiyyətli səfiri təyin edilməsi haqqında Sərəncam imzalayıb.

# Sosial dəstək proqramı uğurla reallaşır

## *Əlilliyi müəyyən edilmiş artıq 12300-dən çox şəxsə proaktiv qaydada birdəfəlik ödəmə təyin olunub*











***Sosial, siyasi, eləcə də iqtisadi sahədə dünyaya inkişafın yeni modelini nümayiş etdirən Azərbaycan dövlət başçısının rəhbərliyi ilə vətəndaşlara olan münasibətinin yeni modelini ortaya qoymuş oldu.***

Belə ki, dövlət başçısının müxtəlif görüşlərdə, tədbirlər çərçivəsində, baş verən hadisələr zamanı vətəndaşların yanında olması, onların problemlərinin həllinə operativ şəkildə reaksiya verməsi, artıq bütün dünya üçün yeni model və təcrübədir. Bu gün Azərbaycan Prezidenti İlham Əliyev ölkədə sosial məsələlərin həllini, əhalinin rifahının yüksəlişini prioritet məsələ hesab edir və ölkəmizdə bu istiqamətdə ardıcıl tədbirlər həyata keçirilir. Bu, bir daha göstərir ki, Azərbaycan dövlətinin siyasətinin əsasında xalqın rifahının yüksəlməsi dayanır. Azərbaycan Prezidentinin çıxışlarının birində bildirdiyi kimi, bizim üçün Azərbaycan vətəndaşlarının rifahı, onların dolanışığı başlıca vəzifədir.

Vətənin müdafiəsi yolunda canını fəda etmiş, şəhidlik zirvəsinə yüksəlmiş, eləcə də əlil olmuş insanlara həssas münasibət dövlətimizin humanizm prinsiplərinə yüksədir. Müzəffər Ali Baş Komandan İlham Əliyev həm I Qarabağ, həm də II Qarabağ müharibəsinin ağır nəticələri ilə üzləşənlərə həssas münasibət göstərmək prinsipini qoruyub saxlayır. Bu qəbildən olan vətəndaşlarımızın sosial müdafiəsinin möhkəmləndirilməsi, o cümlədən, mənzil, fərdi ev və avtomobillərlə təmin edilməsi istiqamətində kompleks tədbirlər həyata keçirilir.

Həyata ardıcıl olaraq keçirilən tədbirlərin davamı olaraq Prezident İlham Əliyevin müharibə əlillərinə xüsusi qayğısını əks etdirən növbəti sosial dəstək proqramı uğurla reallaşır. Azərbaycan Prezidenti İlham Əliyevin tapşırığı əsasında yeni sosial dəstək proqramının - 1997-ci il avqustun 2-dək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş şəxslərin birdəfəlik ödəmə ilə təminatı proqramı davam edir. Bu kateqoriyalara aid olan daha 1300-dən çox müharibə əlilinə proaktiv qaydada birdəfəlik ödəmə təyin edilərək bank hesablarına köçürülüb. Artıq qeyd olunan dövrədək hərbi xidmətdə olarkən aldığı xəsarət nəticəsində əlilliyi müəyyən edilmiş artıq 12300-dən çox şəxsə proaktiv qaydada birdəfəlik ödəmə təyin olunub.

Qeyd edək ki, birdəfəlik ödəmənin məbləği I dərəcə əlilliyə görə - 8 800 manat, II dərəcə əlilliyə görə - 6 600 manat, III dərəcə əlilliyə görə - 4 400 manat təyin edilib. Xatırlatmaq yerinə düşər ki, Cənab Prezident İlham Əliyevin 2018-ci il 19 aprel tarixli Fərmanın şəhid vərəsələrinə birdəfəlik ödəmənin (11 min manat) verilməsi ilə bağlı olması həssas qrupların sosial müdafiəsinin gücləndirilməsinin dövlət başçısının növbəti Prezidentlik dövründə də siyasətinin başlıca istiqamətlərindən olduğunu təsdiq etdi. 2019-cu il 28 yanvar tarixli Fərman isə birdəfəlik ödəmə verilməsi nəzərdə tutulan şəhid vərəsələrinin əhatə dairəsinin genişlənməsinə səbəb oldu. Beləliklə, hər iki Fərmanın icrası olaraq, 12268 şəhidin vərəsələrinə ödəmə verilməsi üçün dövlət büdcəsindən 135 milyon manat vəsait ayrıldı. Prezident İlham Əliyevin təşəbbüsü və tapşırığı ilə bu sahədə müxtəlif böyük maliyyə tutumlu proqramlar həyata keçirilir. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində vurğuladığı kimi, "İkinci Qarabağ müharibəsindən əvvəl və İkinci Qarabağ müharibəsindən sonra şəhid ailələri daim diqqət mərkəzindədir. Bilirsiniz ki, mənim şəhid ailələri, müharibə əlilləri ilə çoxsaylı görüşlərim olub. Onların məişət problemləri dövlət xətti ilə həll olunur, 12 min 500-dən çox şəhid ailəsinə dövlət tərəfindən mənzillər, fərdi evlər verilmişdir, minlərlə minik maşınları verilmişdir. Bu proses davam etdirilir".

Ötən dövr ərzində şəhid ailələri və müharibə əlilləri üçün icra olunan ən geniş və mühüm fəaliyyətlərdən olan mənzillə təminat proqramı 5 dəfə genişləndirilib. Şəhid ailələri və müharibə əlillərinə 2021-ci ildə 3000, postmüharibə dövründə 3500 mənzil verilib. Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyindəki Dövlət Məşğulluq Agentliyi tərəfindən təkcə iki gün ərzində özünüməşğulluq proqramı çərçivəsində Bakı şəhəri, Abşeron və Xızı rayonları üzrə daha 120 şəxsə aktivlər verilib. Verilmiş avadanlıqlar hesabına onlar seçdikləri biznes istiqamətləri üzrə kiçik təsərrüfat və müəssisələrini yaradıblar. Aktivlərlə təmin olunanlardan mühüm bir hissəsi qazi və şəhid ailələridir.

Ümumilikdə bu ilin ötən dövründə mindən çox şəhid ailəsi və qazi üçün özünüməşğulluq proqramı üzrə mal və materiallar verilməklə onlar üçün kiçik təsərrüfatlar qurulub.

Bütün bu addımlar Prezident Cənab İlham Əliyevin güclü sosial siyasətinin başlıca hədəfinin əhalinin rifahının təminatı olduğunu, bu siyasətin əsasında vətəndaş amili, sosial ədalət və humanizm prinsiplərinin dayandığını bir daha təsdiq edir və ictimaiyyət tərəfindən rəğbətlə qarşılanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# TARİXİ ŞUŞA BƏYANNAMƏSİ

***15 iyun, 2021-ci il - Türkiyə-Azərbaycan, "Bir millət, iki dövlət"i rəsmiləşdirən, ən əsası isə, tariximizdə ilk dəfə olaraq iki güclü liderlərin - Rəcəb Tayyib Ərdoğan və İlham Əliyevin işğaldan azad olunmuş Qarabağımızın baş tacı olan Şuşada Müttəfiqlik haqqında Bəyannamə imzalanmasından iki il ötür. Bu real faktordur ki, tarixi sənədlərin imzalandığı tarix və məkan hər zaman böyük əhəmiyyət kəsb edir. Çünki illər sonra gələcək nəsillər bu tarixi və məkanı tarix kitablarından oxuyarkən məsələnin mahiyyətini və əhəmiyyətini daha dərindən dərk edirlər.***

## *İki güclü Liderlərin qardaşlıq birliyi*



Bu Bəyannamə iki qardaş ölkə arasında tarixi münasibətlərin yeni mərhələsinin əsasını qoymaqla Azərbaycan-Türkiyə münasibətlərinə öz möhürünü vurdu. Bundan sonra da Türkiyə və Azərbaycan bütün məsələlərdə bir yerdədir, bundan sonra da bu, belə olacaq. Beləliklə, bir il öncə imzalanmış Şuşa Bəyannaməsi öz əhəmiyyətinə görə region ölkələrinin, o cümlədən Azərbaycan-Türkiyə əməkdaşlığının dərinləşməsinə və işbirliyinin genişlənməsinə xidmət edir. Bu Bəyannamə Azərbaycan və Türkiyə - iki güclü Liderlər İlham Əliyev və Rəcəb Tayyib Ərdoğan arasında bütün sahələrdə inteqrasiyanın nümunəsidir.

### ŞUŞA BƏYANNAMƏSİ BÜTÜN DÜNYANIN BARIŞMALI OLDUĞU TARİXİ GERÇƏKLİKDİR

Prezident İlham Əliyev və Prezident Rəcəb Tayyib Ərdoğan tərəfindən imzalanmış Şuşa Bəyannaməsi bütün dünyanın barışmalı olduğu tarixi gerçəklikdir. Hər iki ölkənin ümumi maraqlarının qorunmasında imkanların birləşdirilməsinə, eləcə də müştərək maraq kəsb edən regional və beynəlxalq strateji məsələlərdə fəaliyyətlərinin qarşılıqlı şəkildə əlaqələndirilməsinə istiqamətlənən saziş Bakı və Ankaranın başçılığı altında yeni regional geosiyasi konfiqurasiyanın qurulmasının başlanğıcıdır. Bu, regionda 200 ilə yaxın davam edən geosiyasi konfiqurasiyaların dağıdılması və bundan sonra Azərbaycan-Türkiyə tandeminin rəhbərliyi altında davam edəcək yeni regional düzənin başlanğıcı deməkdir. Çünki bu gün Azərbaycanla Türkiyə arasındakı münasibətlərin dünyada analoqu yoxdur. 44 günlük Vətən müharibəsində Türkiyənin Azərbaycana qətiyyətli siyasi və mənəvi dəstəyi və qazanılan zəfər regionda yeni reallıqlar yaratdı. Bütün dünya bir daha Azərbaycan-Türkiyə qardaşlığının təntənəsinin şahidi oldu. Bu baxımdan, Azərbaycan-Türkiyə dostluğunun, qardaşlığının və birliyinin yeni təsdiqi sayılan müttəfiqlik münasibətlərinə dair Şuşa Bəyannaməsi hər iki ölkə ilə yanaşı, region və dünya üçün də son dərəcə böyük əhəmiyyət kəsb edir. Həmçinin, imzalanmış Müttəfiqlik Bəyannaməsi iki ölkə arasında münasibətlərin ən yüksək zirvəyə çatmasının göstəricisidir. Ən əsası, bu Bəyannamə region üçün yeni tarixi gerçəklik deməkdir. Dövlət başçımızın dediyi kimi: "Bu gün müttəfiqlik haqqında imzalanmış birgə Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır. Bəyannamənin adı öz-özlüyündə hər şeyi deyir. Biz bu gün keyfiyyətcə yeni əlaqələr qurmuşuq və bu bəyannamədə göstərilən bütün müddəalar bizim gələcək işbirliyimizin təminatıdır". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın söylədiyi kimi: "Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük". Bir sözlə, Şuşa Bəyannaməsi bütün güclərin qəbul etməli olduğu tarixi gerçəklikdir.







Bu mənada Şuşa Bəyannaməsinin siyasi və tarixi əhəmiyyətini izah edən məsələ sənədin imzalanma tarixi, yəni 15 iyun-Milli Qurtuluş Günüdürsə, ikincisi onun Azərbaycanın mədəniyyət paytaxtı Şuşada imzalanmasıdır. Əgər 29 il öncə 15 iyun tarixində Azərbaycanda vətəndaş müharibəsinin qarşısını ümummilli lider Heydər Əliyev aldısa, illər sonra Qars müqaviləsinin imzalanmasından iki yüz il sonra eyni gündə Azərbaycanın torpaqlarını düşmən tapdağından azad edən Müzəffər Ali Baş Komandan İlham Əliyev Şuşa Bəyannaməsini imzaladı. Bəyannamənin əhəmiyyəti ilə bağlı mətbuata bəyanatında Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan qeyd edib ki, "Türkiyə ilə Azərbaycan arasındakı bu bəyannamə bir sıra məsələləri əhatə edir. Gələcəklə bağlı addımları atarkən, artıq təkcə iki ölkəni deyil, bölgəni əhatə edən bir qətiyyətin bu sənəddə ifadə olunduğunu görürük". Bəli, bu qətiyyətin və birliyin təcəssümünü elə bəyannamənin mətni ilə tanış olarkən aydın görmək mümkündür: "Tərəflərdən hər hansı birinin müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, birgə məsləhətləşmələr aparılması, bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirilməsi, BMT Nizamnaməsinə uyğun olaraq bir-birinə lazımi yardım göstərməsi, Silahlı Qüvvələrin güc və idarəetmə strukturlarının əlaqələndirilmiş fəaliyyətinin təşkili nəzərdə tutulur".

### ŞUŞA BƏYANNAMƏSİ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNİN ƏN YÜKSƏK ZİRVƏDƏ OLDUĞUNU GÖSTƏRƏN MÜHÜM SƏNƏDDİR

Bunu Prezident İlham Əliyev "Azərbaycan - Türkiyə strateji müttəfiqlik münasibətləri Qafqaz və region üçün sülh və sabitlik mənbəyidir" mövzusunda beynəlxalq konfransın iştirakçılarına müraciətində qeyd edib. Dövlət başçısı bildirib ki, Bir il əvvəl - 2021-ci il iyunun 15-də "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə dost, qardaş və strateji tərəfdaş olan ölkələrimiz arasında əlaqələr keyfiyyətcə yeni mərhələyə yüksəlmişdir.Bu baxımdan da bir il bundan əvvəl imzalanan Şuşa Bəyannaməsinin müstəsna siyasi, iqtisadi, hərbi, elmi, mənəvi və tarixi əhəmiyyətini xüsusi olaraq qeyd etmək lazımdır. İlk növbədə bu sənəd Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin "Bir millət, iki dövlət" və Türkiyə Cümhuriyyətinin qurucusu Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir" kəlamları ilə xarakterizə olunan Azərbaycan-Türkiyə münasibətlərini daha da gücləndirərək yeni bir mərhələnin əsasını qoydu. Digər tərəfdən Ermənistanda revanşizmin və Qars müqaviləsinin ləğvi barədə iddiaların səsləndirildiyi, bəzi dövlətlərin regionda yenidən qarışıqlıq yaratmaq istədikləri bir zamanda belə bir sənədin imzalanması xüsusi rəmzi məna daşıdı. Məlumdur ki, Qars müqaviləsinin ləğv edilməsi ilə bağlı ayrı-ayrı vaxtlarda həm ermənilər, həm də onlara havadarlıq edən qüvvələr fikirlər səsləndirmiş və bunun üçün cəhdlər göstəriblər. Lakin Şuşada imzalanan Bəyannamə bu məsələni tarixin arxivinə göndərdi.

### HƏR İKİ LİDERİN ŞUŞA BƏYANNAMƏSİNƏ İSTİNAD ETMƏLƏRİ BİRLİK, QARDAŞLIĞIN TƏSDİQİDİR

Prezident İlham Əliyevin dediyi kimi: "Birgə Bəyannamə - Müttəfiqlik haqqında Bəyannamə əlaqələrimizi ən yüksək zirvəyə qaldırır". Bu baxımdan, Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın fəaliyyəti, həyata keçirdikləri siyasət iki qardaş dövlət üçün deyil, həm də Türk dünyası, region və dünya üçün tarixi hadisədir. 15 iyun Azərbaycan tarixində ikinci dəfə xüsusi bir mahiyyət daşıyan günə çevrildi. Zəngəzur dəhlizi layihəsinin həyata keçirilməsi ilə Şərqdən Qərbə hər kəsin istifadə edə biləcəyi yeni bir ortaq iqtisadi dəhliz açılacaqdır. Bu layihə nəinki bölgə, region üçün, həm də dünya üçün vacib və mühüm əhəmiyyət daşıyır. Şuşa Bəyannaməsi Cənub-Şərqi Avropada və Qafqazda iqtisadi artımın güclənməsi, infrastrukturun inkişafı və regional təhlükəsizliyin qorunması üçün çox vacib vasitədir. Həmçinin, elə bu günlərdə Bakıda keçirilən "TEKNOFEST-Azərbaycan"da hər iki liderin Şuşa Bəyannaməsinə istinad etmələri, birlik, qardaşlıq mesajları vermələri bu fikirləri bir daha təsdiq edir. Prezident İlham Əliyevin qeyd etdiyi kimi: "Bu gün biz dünya miqyasında, dünya çapında nadir əməkdaşlıq, iş birliyi, müttəfiqlik nümunəsi göstəririk". Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın dediyi kimi: "Bizim gücümüz Azərbaycanın gücü, Azərbaycanın gücü də bizim gücümüzdür".

### ŞUŞA BƏYANNAMƏSİ AZƏRBAYCAN-TÜRKİYƏ MÜNASİBƏTLƏRİNƏ MÖHÜRÜNÜ VURDU

Bir sözlə, Şuşa şəhərində Azərbaycanla Türkiyə arasında Müttəfiqlik Bəyannaməsinin imzalandığı 15 iyun 2021-ci il tariximizin ən parlaq və ən şanlı səhifələrindən biri olaraq yaddaşlarda qalacaq. Və Azərbaycan Prezidenti İlham Əliyev və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan arasında imzalanmış Müttəfiqlik haqqında Şuşa Bəyannaməsi iki qardaş dövlətin münasibətlərinin yeni mərhələsinin başlanğıcı oldu. Həmçinin, Şuşa Bəyannaməsi Azərbaycan ilə Türkiyənin qardaşlığını bütün dünyaya bildirən bir mesajdır.

***RƏFİQƏ KAMALQIZI***

# ERMƏNİSTAN: Dost üzünə ağ, erməniyə dağ olan ölkə

***Ermənistan məğlub ölkədir, ordusu məhv edilib, işğalçı kimi burnu ovulub. Regionda özünü güclü dövlət, qalib dövlət kimi təqdim etməsinə də rast gəlinmir. Heç bir qondarma hesabatlarında "yenilməz ordu" nominasiyasına rast gəlinmir. Diaspor-daşnak oyununun girdabına düşən ermənilər indi başlarına döyür, nə etdiklərini bilmirlər. Hətta Azərbaycanın uzatdığı ələ şübhə ilə baxırlar. Laçın və Zəngəzur dəhlizləri, sərhədlərin delimitasiyası, kommunikasiya xətlərinin açılması kimi unikal təkliflər niyə erməni hökumətinin, xalqının boğazında ilişib-qalıb, bu, müəmmadır.***

Hələ də tərəddüd edirlər. Bir tərəfdən Azərbaycanın irəli sürdüyü təklifi dəyərləndirmək istəyirlər, digər tərəfdən müzakirələr adı altında cavabı yubadırlar, ya da heç vermirlər.Müharibədə məğlubiyyəti ermənilər çox maraqlı bir səbəblə özlərindən yayındırmağa çalışırlar. Guya ki, 44 günlük müharibədə düçar olduqları məğlubiyyət Türkiyə, Pakistan, Rusiya və İsrail kimi ölkələrin hərbçilərinin Azərbaycan tərəfdə Erməni ordusuna qarşı döyüşməsi səbəbindən baş verib. Üstəlik, bu müharibədə Suriya və Liviyadan gətirilmiş "nayomnik"lər aktiv iştirak edib. Sanki, Ermənistanın başıpozuq ordusu o qədər güclüdür ki, onu məğlub etməyə Azərbaycan silahlı qüvvələrinin gücü çatmayıb. Yenə də erməni yalanı. Ustalıqla uydurulmuş bu hekayə əlbəttə, Ermənistanın daxili auditoriyası üçün yazılıb, məhv edilmiş erməni silahlılarının yazınlarını sakitləşdirmək, ermənilərdə onsuz da ölmüş ümidlərə azacıq da olsa işıq salmaq üçün nağıllaşdırılıb.Ermənistan və ermənilər Rusiyadan qurtulmaq arzularını gizlətmirlər. I Qarabağ müharibəsində əldə etdikləri "qələbə" üçün kimə borclu olduqlarını ötən 30 ildə unutmadılar. Hətta iş o qədər böyüdü ki, Ermənistanın mütün strateji sahələrini Rusiyanın əlinə verməkdə xəsislik etmədilər.
















Bir neçə gün öncə İrəvanın mərkəzindəki "Sürməli" Ticarət Mərkəzində partlayış baş verdi. Ermənilər səbəb və səbəbkarlar çox axtarsalar da və sonda Rusiyanın üstündə durdular. Hətta "türklər"in də adı hallandı. İş o yerə çatdı ki, Rusiyanın İrəvandakı səfirliyi tərəfindən Ermənistan XİN-ə nota ünvanlandı. Hələ də bu notaya cavab verilməyib. Niyə? Səbəb yəqin ki, bəllidir, qorxurlar.Bu gün Ermənistan mətbuatı təkcə "Sürməli" ticarət mərkəzində baş verənlərə görə deyil, o cümlədən 44 günlük müharibədə məğlubiyyətlərinin acığını çıxaracaq münasibətləri tirajlamaqdadır. Erməni politoloqlar sanki indi yadlarına düşüb kimi, Ermənistanın kiminlə əməkdaşlıq edəcəyini, əlaqə saxlayacağını özü seçən müstəqil dövlət olduğunu Rusiyaya xatırladırlar. Bildirirlər ki, strateji tərəfdaşların seçimində ermənilərə yol göstərmək Rusiyanın işi deyil.Erməni mətbuatı yazır: Rusiya Ermənistanda öz əlləri və düşünməmiş bəyanatları ilə anti-Rusiya əhval-ruhiyyəsi yaratmaqda davam edir, etiraf etmək lazımdır ki, bu, son vaxtlar miqyasından təzəcə çıxıb. Eyni zamanda İrəvanı hədələyin, Kreml üçün ölkəmizlə münasibətlərin adi sxeminə - yəni Moskvanın, əlbəttə ki, "böyük qardaş" olduğu şaquli istiqamətdə, bizim isə vassalı olduğumuz halda, eyham vursunlar. Putinoidlər və ruslar həm Ukrayna ilə müharibədə, həm də Qərblə qarşıdurmada nə qədər az uğur qazanırlarsa, postsovet ölkələri ilə münasibətdə onların tonu bir o qədər
aqressiv olur.

Bildiyiniz kimi, bu günlərdə Ermənistanda və Qarabağda İrəvandakı "Sürməli" ticarət mərkəzinin ərazisində baş vermiş partlayışın 16 qurbanı üçün matəm keçirilir. Daha 62 nəfər yaralanıb. Bütün Ermənistanda ticarət mərkəzində baş verən partlayışın günahsız qurbanlarının ruhu üçün anım duaları edilir. Ölkə matəmdədir.Bəs Rusiya bu zaman nə edir? O, nəinki İrəvanla rəftar edir, hətta onu açıq şəkildə hədələyir. Lavrovun departamenti Rusiya Xarici İşlər Nazirliyinin İnformasiya və Mətbuat Departamentinin direktor müavini İvan Neçayevin ağzı ilə bəyanat yayıb və orada Moskvanın notaya cavab gözlədiyi qeyd olunub. Ermənistan Xarici İşlər Nazirliyi tərəfindən "Sürməli" ticarət mərkəzində baş verən partlayışla bağlı nəşrlərlə bağlı göndərilib. Xatırladaq ki, ötən gün Rusiyanın Ermənistandakı səfirliyi avqustun 14-də ticarət mərkəzinin ərazisində baş vermiş faciədə Rusiya strukturlarının əli olmasında ittiham olunan nəşrlərlə bağlı XİN-ə nota göndərib. Rusiya səfirliyi nəşrləri Rusiya-Ermənistan müttəfiqlik münasibətlərinə xələl gətirmək məqsədi daşıyan bu cür eyhamların arxasında duran siyasi qüvvələrin təxribatı kimi qiymətləndirib.Rusiya səfirliyi bildirib ki, biz Ermənistan hakimiyyətinin bu cür qeyri-dost təzahürlərin qarşısını almaq üçün addımlar atmasını, o cümlədən lazımi ictimai şərhləri gözləyirik.Nəşr yazır: Nə tələsirsən, böyük qardaş? Görmürsünüz ki, Ermənistanda matəm var, ticarət mərkəzində baş verən partlayışla bağlı araşdırma aparılır? Digər tərəfdən, keçmişdə münasibətlərimizin xarakteri etiraz notaları kimi addımları nəzərdə tuturmu? Belə olan halda, açıq-aşkar anti-erməni materialları və xəbərləri rus dilində, o cümlədən dövlət mediasında göbələk kimi çoxaldığı və artmaqda davam etdiyi halda, erməni tərəfinə necə reaksiya verməyi əmr edərdiniz?Bəli, bu, bizim xoşumuza gəlmir, üstəlik, bu, bizi çox incidir, lakin biz hələ də başa düşürük ki, Rusiyanın öz maraqları var, heç də həmişə erməni maraqları ilə üst-üstə düşmür. Biz, heç olmasa, Rusiya Xarici İşlər Nazirliyinə etiraz notaları göndərmirik. Çünki Moskva açıq şəkildə Azərbaycanı silahlandıranda, Bakı və Ankaranın aqressiv istəklərinə uyduranda da göndərilməmişdilər. Ancaq ümumiyyətlə, dövlət tərəfindən maliyyələşdirilməyən bəzi KİV-lərdə rusların xoşuna gəlməyən nəşrlər peyda olan kimi, burada XİN-ə nota verir, bu çirkin və qeyri-etikdir, xüsusilə matəm vaxtlarında.Lakin yuxarıda adı çəkilən Neçayev rəhbərliyinin göstərişi ilə İrəvanı da Qərblə təmaslarına görə hədələyib. Rusiya diplomatının təhdidlərində Ermənistan açıq şəkildə göstərilməsə də, ünvan bəllidir. Rusiya Xarici İşlər Nazirliyinin səlahiyyətlisi Neçaev həftəlik brifinqdə deyib ki, Rusiyanın KTMT-dəki müttəfiqlərinin dost olmayan ölkələrlə təmasları Moskva ilə strateji tərəfdaşlığa xələl gətirməməlidir. Rusiyaya dost olmayan ölkələrlə bu təmaslar ölkəmizlə strateji tərəfdaşlığa xələl gətirməməli, ümumi assosiasiyaların, o cümlədən KTMT və Aİİ, MDB və ŞƏT-in mövcud müqavilələrindən irəli gələn öhdəliklərə zidd olmamalıdır".Aydındır ki, burada söhbət ilk növbədə Ermənistandan, ikincisi isə Qazaxıstandan gedir. Qazaxıstan Moskva ilə özü danışır, Ermənistan isə köçəri vəkili kimi hələ də qeydiyyatdan keçməyib. Bu ölkənin fikirlərinə hörmətlə yanaşan, sözünə qulaq asan yoxdur. Neçayevin sözündən belə çıxır ki, Ermənistan ya Dağıstan, ya Çeçenistan və yaxud Tatarıstandır. Erməniləri də bu yanaşma özündən çıxarıb. Onar Ermənistanın kiminlə əməkdaşlıq edəcəyini, əlaqə saxlayacağını özü seçən müstəqil dövlət olduğunu hər addımda xatırladırlar. İkibağlı oyuna girişən Ermənistan rəhbərliyi Moskva ilə əlaqə saxlamağın faydalı olduğunu deyir, amma London və Vaşinqtonla da dostluq, müttəfiqlik edəcəklərini deməkdən də çəkinmirlər. Buna görə də hələlik mətbuat vasitəsilə Paşinyan Moskvadakıların diqqətinə çatdırır ki, strateji tərəfdaşlarımızı necə seçəcəyimizin ruslara heç bir aidiyyəti yoxdur. "Azərbaycanı dişinə qədər silahlandırmaqda məqsəd nə idi, KTMT çərçivəsində tərəfdaşlıq haqqında niyə düşünmədiniz", kimi sualla başlayan İrəvan-Moskva didişməsi erməni cəmiyyətində hələ də aktualdır və bu, iki ölkə arasında münasibətləri kökündən dəyişə bilər. Halbuki, hadisələr məhz bu istiqamətdə davam edir.

Erməni mətbuatı yenə ittiham edir: "Azərbaycan və Türkiyə Ermənistana hücum edəndə" KTMT üzvü kimi niyə köməyə gəlmədilər? İndi isə Rusiya bütün dostlarını və müttəfiqlərini itirəndə birdən-birə KTMT və Aİİ çərçivəsində öhdəliklər xatırlanır. Ümumiyyətlə, Rusiya Ermənistan cəmiyyətində getdikcə daha çox qərbyönlü əhval-ruhiyyənin hökm sürməyə başlamasına daha qəzəblənməməlidir. Rusiya bunun üçün hər şeyi etdi. Bəli, son 30 ildə Ermənistana rəhbərlik edən Rusiyadan çox əziyyət çəkdik. Gördüyünüz kimi, bu, bizi yaxşılığa aparmadı. Biz xarici siyasətimizi balanslaşdırmaq istəyirik, lakin Moskva kənar bizi geri çəkməyə çalışır, hətta boğazımızdan bərk-bərk yapışır. Bu, onun ünvanında daha çox acı və mənfilikdən başqa bir şey deyil, o, əldə edə bilməyəcək.

Bu arada Qarabağda yanğınların baş verməsi xəbərləri yayılıb. Məlumata görə, yanğın Əsgəran qəsəbəsi yaxınlığındakı meşə ərazisində baş verib. Laçın şəhəri, Zabux və Sus kəndlərindən çıxarılan əhalinin son 10 ildə məskunlaşdıqları azərbaycanlılara məxsus evləri yandırdıqları xəbəri də özünü çox gözlətməyib. Əvvəlcə Ermənistandan gələn emissarlar orada yaşayanlara bildirdilər ki, evləri yandırmasalar onlara kompensasiya veriləcək. Amma evlərin, ətraf meşələrin yandırılmasından da görünür ki, Ermənistan dövləri ikibaşlı oyun oynayır. Ola bilsin ki, ermənilər adətlərinə uyğun olaraq hər sözü tərsinə başa düşürlər.

Azərbaycan nə Qarabağa, nə də bu ərazilərimizdə yaşayan ermənilərə heç bir status verməyi düşünmür. Rusiya sülhməramlılarının müvəqqəti nəzarət zonasında olan ermənilər ya Azərbaycana inteqrasiya olunmalı, ya da bu əraziləri tərk etməlidirlər. Ölkənin qanunlarına qarşı çıxanlara, separatçılıq əməllərini davam etdirənlərə Qarabağda və ümumiyyətlə, Azərbaycanda yer yoxdur. Ermənistan rəhbərliyi də daxil olmaqla revanşist qüvvələr hələ də reallığı dərk etmək, əllərinə düşən fürsəti dəyərləndirmək istəmirlər. Azərbaycan bu gün diqtə edən tərəfdir, Ermənistanın isə şərt irəli sürməsi qəbuledilməzdir.

***V.VƏLİYEV***

# Yaşıl evlərimiz...




***İnsan övladı hər zaman düşünməyə borcludur ki, dünyada tək canlı mən deyiləm. Ağaclar, güllər, çiçəklər, otlar, ümumilikdə bütün bitki və heyvanlar aləmi də canlıdırlar. Onu da düşünməyə borcluyuq ki, nə üçün Ulu Yaradan bizləri heyvanlardan, bitkilərdən fərqli yaradıb, bizə əl, ayaq, dil verib? Bu fərq ona görə verilib ki, digər canlıların taleyi bizə tapşırılsın. Dünyamızın flora və faunası qorunsun. Bunu isə biz insanlar etməliyik. Canlı olaraq həyatımızda aclıq, susuzluq hiss ediriksə, mühafizəyə, təhlükəsizliyə ehtiyac duyuruqsa, deməli, ətrafımızdakı canlıların hər birinin də o istəkləri var.Kainat necə də möcüzəli və maraqlı qurulub. İnsan, flora və fauna necə də bir-birinə zəncirvarı birləşib. Onların heç birinin həyatını bir-birindən ayrı təsəvvür etmək olmaz. Belə isə bu gün haqqında söhbət açdığım yaşıl evlərimizi qorumaq hər birimizin borcudur. Xüsusilə yay fəslində bu evlərə-meşələrə minlərlə insan istirahət üçün üz tutur. Bu səbəbdən meşələrimizin bu fəsildə daha çox diqqət və qayğıya ehtiyacı var.***

## İnsan olmayan yerdə təbiət "yetim qalar"...

Yayın isti günlərindən qaçıb günlərlə, bəzənsə aylarla çadırlarımızı qurub başı göylərə ucalan qollu-budaqlı sıx ağaclarının kölgəsinə sığındığımız meşələrimizi həm də hər birimizin yaşıl evləri hesab etmək olar. Təbiətimizin yaşıl ciyəri, oksigen mənbəyi olan meşələrimizdən söhbət düşəndə hər dəfə özümüzdən asılı və asılı olmayan səbəblər üzündən təbiətimizə vurduğumuz zərbənin təəssüf dolu acı xatirələrini yaşamalı oluruq. Elektrik enerjisinin, təbii qazın olmadığı vaxtlarda enerji mənbəyi kimi baxdığımız meşələrimiz arxamızda dağ kimi dayanıb.Meşələrdən söz düşəndə xüsusilə Naxçıvanda blokadanın ilk illərini xatırlayıram. O illər ümid yeri, ata ocağı bilib üz tutduğumuz meşələrimizdən əliboş qayıtmadıq. Bəzən təbiətin özünün, bəzənsə bizim əllərimizlə yaratdığımız təbii sərvətimiz o ağır illərin sərt qışlarında evlərimizdəki körpələrimizi, xəstələrimizi soyuqdan donmaqdan xilas etdi, yeməyimizi "bişirdi", çayımızı "qaynatdı". Düşmənin əzmimizə mənəvi zərbə endirmək məqsədilə tuşladığı "baltanın" qarşısına meşələrimiz "sinəsini" verdi. Özünün məhv olmasını insanların məğlub olmasından üstün bildi. Çünki belə bir deyim var, insan olmayan yerdə təbiət "yetim qalar". Bu yerin insanlarının yaşaması sabah meşələrin bərpası, yüzlərlə hektar yeni meşə örtüyünün yaradılması demək idi və belə də oldu...



Həmin çətin illəri naxçıvanlılarla birgə yaşayan ümummilli liderimiz Heydər Əliyev hər biri bir dədə-baba yadigarı olan və əlacsızlıqdan kəsilən ağacların yerində yaranan görüntünü "təbiət qəbiristanlığı" adlandırıb və təbiətə dəyən bu ziyanın tezliklə aradan qaldırılması üçün tövsiyələr verib, bu yerin insanlarını ağac əkib bağ salmağa dəvət etmişdi. Onun 1993-cü il aprelin 2-də qəbul etdiyi tarixi qərarla muxtar respublika ərazisində başlanan yaşıllaşdırma tədbirləri bu gün bütün ölkə ərazisində davam etdirilir. Respublikamızda bu işlərin planlı aparılması üçün 2003-cü il fevralın 18-də "Azərbaycan Respublikası meşələrinin bərpa edilməsi və artırılmasına dair Milli Proqram" qəbul edilmiş və Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafına dair dövlət proqramlarında bu sahədə tədbirlərin görülməsi nəzərdə tutulmuşdur.Azərbaycanda meşələrin ümumi sahəsi 1021 min hektardır. Bu da respublika ərazisinin 11,8 faizini təşkil edir. Ölkəmizin meşə ehtiyatının 49 faizi Böyük Qafqaz, 34 faizi Kiçik Qafqaz, 15 faizi Talış və 2 faizi Aran zonasının (Naxçıvan Muxtar Respublikası ilə birlikdə) payına düşür. Azərbaycanda adambaşına düşən meşə sahəsi 0,12 hektardır. 261 min hektar meşə fondu sahəsi Ermənistan silahlı birləşmələri tərəfindən işğal edilmişdi ki, 2020-ci ilin 44 günlük İkinci Vətən Müharibəsi ilə bu fond işğaldan azad edidi, məhv edilmiş həmin meşələr indi bərpa olunur.Bəli, meşələr bizim arxamızda hər zaman dağ kimi dayanıb, bizə qoynunu açıb, çətinliklərdən qurtarıb. Yayda ağaclarını çətir edib bizi istidən qoruyub. Kölgəsinə sığınmışıq, istirahətimizi səmərəli qura bilmişik. Belə isə onun da bizə ehtiyacını hər zaman nəzərə almalı və unutmamalıyıq ki, bizsiz təbiət bir yetim, kimsəsizdir...

## Qarabağda meşələrimiz bərpa olunur

Yağı düşmən bu meşələri də evlərimiz, həyətlərimiz, məscidlərimiz, tarixi-mədəni abidələrimiz kimi məhv edib. Qəddar və nankor düşmən 30 ildə işğal altında saxladığı torpaqlarımızda daşı daş üstündə qoymadığı kimi, təbii sərvətlərimizi də talayıb, öz ölkəsinə daşıyıb, həmçinin dünya bazarlarına çıxarıb, satıb-sovub, milyonlar qazanıb. Məlumata əsasən ümumi sahəsi 43 min hektar olan 6 xüsusi mühafizə olunan təbiət ərazisində 6 800 hektar meşə örtüyü tamamilə məhv edilib, biomüxtəlifliyə ciddi zərər vurulub. Bəsitçay Dövlət Təbiət Qoruğunun təxminən yarısına qədər hissəsində qədim Şərq çinarı ağacları kəsilərək məhv edilib.Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyevin təşəbbüsü ilə nadir təbiət abidəsi olan çinar meşəsini qorumaq məqsədilə Azərbaycan SSR Nazirlər Sovetinin 1974-cü il 4 iyul tarixli qərarına əsasən Zəngilan rayonunun ərazisində 117 hektar sahəni əhatə edən Bəsitçay Dövlət Təbiət Qoruğu yaradılmışdı. Çox təəssüf ki, 1980-ci ildə çinar meşəsinin ümumi sahəsi 10 hektar azalaraq 107 hektar təşkil edib. Hesablamalara görə, Azərbaycanda çinar meşəsinin ümumi sahəsi 120 hektara yaxındır. Zəngilanın çinar meşəsi Avropada ən böyük, dünyada isə Kanadadan sonra ikinci yeri tutur. Hazırda Kanada dövlətinin bayrağının üzərindəki Şərq çinarı yarpağının təsviri uzun müddətdir ki, Kanadanın rəmzinə çevrilib. Bununla yanaşı, bir çox müəlliflər öz tədqiqatlarında hətta belə qənaətə gəlirlər ki, Zəngilanın çinar meşəsi - Şərq çinarı meşəsi dünyanın ən böyük meşə zolağıdır.İllər, əsrlər ötər, lakin ermənilərin Azərbaycan xalqına qarşı vandal hərəkətləri heç bir zaman unudulmaz. Çünki bu vəhşiliklərin canlı şahidləri olan bizlər bunların hər birini yazmışıq, gələcək nəsillərə ötürmüşük. Qoy əsrlər sonra da bizim övladlarımız bu qonşuluqdan kənar olmuşların əməllərini bilsinlər. Bilsinlər ki, yağı düşmən kənd və şəhərlərimizə, torpağımıza, insanlarımıza, körpə balalarımıza, meşələrimizə, ağaclarımıza, meşələrdə yaşayan minlərlə heyvanlara nə kimi zərbələr endiriblər. İnsanlar torpağından zorla qovulub. İnsan olmayan yerdə təbiət "yetim" qalar, deyirlər. Bəli, insanlar Qarabağdan gedəndən sonra təbiət yetim qaldı. Ağaclar qurudu, meşələr məhv edildi, heyvanlar acılıqdan öldülər. Bütün binaların səbəbkarı olanlar günahkardırlar. Onların cəzasını 44 günlük müharibədə bu xalq verdi. Ulu Yaradan isə zamanla verəcəkdir.Qarabağın meşə örtükləri də artıq burada aparılan bərpa işləri kimi diqqətdə saxlanılan məsələdir. Onlar da bərpa edilir. Bu qədim yurd yerinin ekosisteminə vurulan zərəri aradan qaldırmaq məqsədilə Zəngilan rayon ərazisində indiyədək 2 000 çinar ağacı və 1 000 kiloqrama yaxın palıd toxumu əkilib. Bir neçə ildən sonra bu yerlərdə əvvəlki meşələrimizə qarşılaşa biləcəyik. Təki torpaq olsun. O, zamanla yenə də bitirir və yetirir...

## Təbiətin fəryadına gecikmək olmaz

Bu gün bütün dünya təbiətlə bağlı ciddi problemlər yaşayır. Qlobal istiləşmə yanğınlara səbəb olur. Su qıtlığı meşələrin məhv olması ilə nəticələnir. Bütün bunlara təbii proseslərdir, deyirik. Lakin bu proseslərin yaradıcısı da



biz insanlarıq. Texnologiyanın inkişafı, sonsuz sayda fabrik və zavodların fəaliyyəti biz insanların beyninin, əllərinin "məhsullarıdır". Biz insanlar gəlir əldə etmək, yaxşı yaşamaq üçün təbiətin qəsdinə dayanmışıq. Görün biz nə qədər tamahkarıqsa, ağacları kəsib yerində çoxmərtəbəli evlər ucaldıb pul qazanırıq. Bu pulla xarici ölkələrə səfərlər edirik, yaxşı maşınlar sürür, geyinib-keçinirik. Lakin anlamırıq ki, bizə puldan da, maşından da, geyimdən də önəmli olan oksigendir. Onu nə üçün əllərimizlə məhv edirik?İnsan övladının bütün əməlləri təbiətə hər dəfə bir ziyanla nəticələnir. Sonda isə təbiət fəryad qoparır, kömək istəyir. Lakin bu dilsiz-ağızsız təbiətin şüuru yoxdur axı kimə üz tutduğunu anlaya. Anlaya ki, mən kimdən nə umuram... Əlacı fəryada qalır, yenə də fəryad edir. Lakin fəryadına səs verən varmı?Görkəmli təbiətşünas alim, akademik Həsən Əliyev məşhur "Həyəcan təbili" kitabında yazırdı: "Həyatda dərsə də gecikmək olar, bazara da... Amma təbiətin fəryadına gecikmək olmaz. Çünki təbiətin fəryadına gecikmək böyük faciələr yaradar". Bəli, internet əsrinin insanları olan bizlər az qalır, onunla qürur duyaq ki, nə gözəl sistemdir bu, istənilən anda bütün istəkləri yerinə yetirir, uzaq məsafələri yaxın edir, məktubları anında çatdırır, dünyanı bir anda evimizə gətirir. Hər birimizin, hətta kiçik yaşlı övladlarımızın əlində bir telefon, hər evdə kompüter, işdə kompüter, küçələrdə oyun zalları, ümumiyyətlə, ətrafımızda hər şey internetlə bağlıdır. Lakin biz hələ də anlamırıq ki, gündən-günə işıq enerjisi ilə inkişaf edən bu texnologiya üç canlıya-insana, bitki və heyvan aləminə nə dərəcədə ziyan vurur. Anlamırıq, anlamaq da istəmirik. Təbiət fəryad edir, başımızı telefonlardan qaldırıb onun səsinə səs vermirik. Meşələr od tutub yanır, əhəmiyyət vermirik. Gözümüz qarşısında yayın ortasında ağacların yarpağı payızın xəzəlinə çevrilir, fərqinə varmırıq.On ilin o başında şaqqıltı ilə axan çaylarımız indi dibindəki daşların üstünü örtəcək səviyyədə axır, səbəbini yenə də təbiətin özündə görürük. Düşünmürük ki, bütün bunların səbəbkarı bizik. Biz öz əllərimizlə təbiəti məhv edirik, yaşıl evlərimizin qapılarını üzümüzə özümüz bağlayırıq.

## Təbiətimizin yaşıl ciyəri, oksigen mənbəyi

İndi yay fəslidir. İnsanlar böyüklü-kiçikli meşələrə üz tuturlar. Təbiətimizin yaşıl ciyəri, oksigen mənbəyi olan meşələrə. Şəhərlərin cirhacırından yaxa qurtarmağa çalışırlar. Meşələr də həmişəki kimi ağuşunu açır onlara. Kölgəsindən, sərinliyindən, romantikasından hər kəsə pay ayırır.Biz nə edirik? Bu dəyəri qarşılığında ona dəyər veririkmi? Xeyr, vermirik. Biz sadəcə öz istirahətimizi səmərəli qurmağa çalışır. Bu səmərə də ondan ibarətdir ki, ağacların qol-budaqlarından qırıb çay qoyur, yemək hazırlayırıq. Bu hələ azmış kimi, istirahətdən qayıdanda nə qədər ki, tullantı var, meşələrimizin sinəsinə səpələyib geri qayıdırıq. Meşə gözətçiləri yaxınlaşır, xahiş, xəbərdarlıq edib gedirlər. Bütün bunları isə bəzilərimiz sanki eşitmirik.Dəfələrlə müşahidə etmişəm ki, görüm ətrafdakı insanlar istirahət etdikləri ərazidən hansı şəkildə ayrılacaqlar. Baxmışam ki, yaxınlıqda tullantı qutularının olmasına baxmayaraq əllərindəki tullantını ağacın altında qoyub uzaqlaşırlar. Hansı ki, tullantı qabı onlarla 3-4 metr məsafədədir.Meşələrdə bulaqların başını da insanlar "zinətləndirir". Qarpız, qovun qabıqlarını, tərəvəz, yemək qalıqlarını buraya töküb gedirlər. İstifadə etdikləri qabları burada yuyub evlərinə təmiz aparmaq istəyirlər. Tullantıları isə burada hara gəldi, töküb gedirlər. Hansı ki saatlardır evlərini tərk edib burada oturublar, sərinləyib, yaxşı istirahət ediblər. Belə isə bura da sizin eviniz deyilmi? Zəhmət olmasa, vaxtınız olanda, bir bu barədə fikirləşin.

## Görsəniz, qiyamət qopur, yenə əlinizdəki fidanı əkin

Meşə örtüyü bütün canlılar, xüsusilə də insanlar üçün çox gərəklidir. Elə Həzrəti Məhəmməd Peyğəmbərin "Görsəniz, qiyamət qopur, yenə əlinizdəki fidanı əkin" kəlamı da yaşıllıqların, meşələrin faydasını ifadə edir. Bu dəyərli fikir özündə fidan əkməyin vacibliyini ehtiva etməklə yanaşı, həm də qiyamətədək təbiəti qorumağın faydasını açıqlayır.İllər öncə meşələrimizin birində qarşılaşdığım meşə gözətçisi Əbdüləli əmi söhbətimiz zamanı çox maraqlı məqamlara toxunmuşdu: - Uzun illərdir ki, meşəbəyi işləyirəm. Bəzən düşünürük ki, meşələr tək yayda istidən qorunmaq, dincəlmək üçündür. Amma belə deyil. İlin bütün fəsillərində bura gələnlər var: qonaqlar, turistlər, rəsm çəkənlər, xəstələr   Çoxillik müşahidələrimə əsasən deyə bilərəm ki, burada müxtəlif xarakterli insanlarla qarşılaşmışam. Bu insanlar arasında təbiəti göz bəbəyi kimi qoruyanlara da, ona qənim kəsilənlərə də rast gəlmişəm. Əlbəttə, meşənin həmişə təmiz saxlanmasına çalışmışam, bunu buraya gələnlərin də diqqətinə çatdırmışam. İndi bütün meşələrə tullantı qutuları qoyulub. Bu qutular insanları meşəni təmiz saxlamağa "çağırır". İstirahətə gələnlərə həmişə deyirəm ki, meşələrimizi də evlərimiz kimi təmiz saxlamalı, onlara qayğı ilə yanaşmalıyıq. Əgər mədəni istirahət üçün təbiətə üz tutub günlərlə burada vaxtınızı keçirirsinizsə, deməli, meşələrimiz də sizin eviniz kimi doğma olmalıdır.

Meşə gözətçisinin bu fikirlərindən sonra belə qənaətə gəlmək olar ki, meşələrimiz də digər təbii sərvətlərimiz kimi insanların yaşayış tərzinə birbaşa nüfuz edir. Təbiət nə qədər zəngin olarsa, insanın zövqünü də bir o qədər oxşayar, sağlamlığına da bir o qədər müsbət təsir göstərər. Belə isə fərqli rəftarımızdan asılı olmayaraq, hər kəsə qucağını səxavətlə açan meşələrimiz, həqiqətən, bizim yaşıl evlərimizdir. Xoş günlərimizlə yanaşı, dar günlərimizdə də üz tutub çətinliklərimizi onların sayəsində aşdığımız meşələrimizə həmişə məhəbbətlə, qayğı ilə yanaşarıqsa, zənginləşdirib, qoruyub, səmərəli istifadə edəriksə, ana təbiətimizin qucağındakı yaşıl evlərimizin qapıları da üzümüzə daim açıq olar.

***Mətanət MƏMMƏDOVA***

# MÜASİR AZƏRBAYCAN, DAVAMLI İNKİŞAF, GÜCLÜ DÖVLƏT

## PREZİDENT İLHAM ƏLİYEV: "İqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər"



***Azərbaycan Prezidenti İlham Əliyevin 2018-ci il 11 aprel tarixli andiçmə mərasimindəki çıxışı zamanı bildirmişdir ki, gələcəyə baxmalıyıq: "Biz gələcəyə baxmalıyıq və baxırıq. Növbəti illərdə görüləcək işlər haqqında bizim çox aydın təsəvvürümüz, planlarımız, proqramlarımız var. Ona görə mən əminəm ki, bütün Azərbaycan xalqı və biz hamımız gələcəyə çox böyük nikbinliklə baxırıq.***





Hamımızın amalı ondan ibarətdir ki, ölkəmiz daha da güclənsin, daha da qüdrətli dövlətə çevrilsin, Azərbaycan vətəndaşları daha da yaxşı yaşasınlar". Bəli, geridə qoyduğumuz 4 il ərzində Azərbaycan çox böyük uğurlar əldə etdi. Sözsüz ki, ən əsası ölkəmizin ərazi bütövlüyü bərpa olundu. 30 il ərzində işğal altında olan torpaqlarımız Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə düşmən tapdağından azad olundu. Bu gün işğaldan azad olunmuş ərazilərdə genişmiqyaslı quruculuq işləri həyata keçirilir. Böyük qayıdış prosesinin başlanması üçün ciddi addımlar atılır. Azərbaycan xalqı daha inamla irəliyə baxır, bundan sonra müzəffər xalq və qalib dövlət kimi əbədi yaşayacağıq. Bütün bunlara isə güclü iqtisadiyyatımızla nail olmuşuq.

### AZƏRBAYCAN DÜNYADA ƏN ÇOX İSLAHAT APARAN 10 ÖLKƏDƏN BİRİ KİMİ TANINIB

”Ancaq iqtisadiyyatı güclü olan ölkələr müstəqil siyasət apara bilərlər”,- deyən Prezident İlham Əliyev ardıcıl olaraq iqtisadiyyat sahəsində islahatların təşəbbüskarı kimi çıxış edir. 2003-2018-ci illər tariximizə böyük iqtisadi yüksəliş dövrü kimi daxil olub. Bu dövr ərzində ümumi daxili məhsul 3,2 dəfə, büdcə gəlirləri isə 13,5 dəfə artıb. Xarici ticarət dövriyyəsi 4,6 dəfə, ixrac isə altı dəfə artmışdır. Ölkənin strateji valyuta ehtiyatları 26,6 dəfə artıb, maliyyə imkanlarımız xeyli yaxşılaşıb. Regionlarda ümumi məhsul buraxılışının artımı 3,6 dəfəyə bərabər olub, əhalinin nominal gəlirləri 8.6 dəfə, minimum əməkhaqqı 12.9 dəfə, xaricə səfər edən vətəndaşların sayı 2,2 dəfə, əhalinin banklardakı əmanəti 30 dəfə artıb. Bu dövrdə 1 958 400 yeni iş yeri açılıb, 326.6 min nəfərə ünvanlı dövlət sosial yardımı verilib. İşsizliyin səviyyəsi 9.2 faizdən 5 faizə, yoxsulluğun səviyyəsi 44.7 faizdən 5.4 faizə enib, 245 min nəfər məcburi köçkün mənzillə təmin olunub.2003-2018-ci illərdə əmək haqları təxminən 7 dəfə, pensiyalar isə 10 dəfədən çox artıb. Sosial infrastruktur inkişaf etdirilib, o cümlədən 3100-dən çox məktəb və 640-dan çox xəstəxana tikilib və təmir edilib. Regionlarda 43 olimpiya idman mərkəzi yaradılıb. 2003-2018-ci illərdə Azərbaycan qlobal rəqabətlilik indeksinə görə dünyada öz mövqeyini xeyli möhkəmləndirib. Davosda keçirilən Dünya İqtisadi Forumunun 2017-2018-ci illər üzrə Qlobal Rəqabətlilik Hesabatında Azərbaycan 35-ci yeri tutaraq MDB məkanında liderliyini qoruyub saxlayıb. Azərbaycan dünyada ən çox islahat aparan 10 ölkədən biri kimi tanınıb. Həmçinin, ölkəmiz innovasiya potensialına görə dünyada 44-cü, dövlət orqanlarında İKT-nin tətbiqi üzrə 14-cü olub. Ölkə ərazisində internetin tətbiqi genişləndirilib və internet istifadəçiləri əhalinin 78 faizini təşkil edib. Bütün bunlar isə, ölkədə aparılan uğurlu islahatların aparılmasıdır.

### İSLAHATLARIN ƏSAS HƏDƏFİ AZƏRBAYCANI MÜASİR, İNKİŞAF EDƏN VƏ GƏLƏCƏKDƏ İNKİŞAF ETMİŞ ÖLKƏYƏ ÇEVİRMƏKDİR

2019-cu il isə ölkə tarixinə isə islahatlar ili kimi düşdü. Azərbaycan indi iqtisadi inkişaf, ciddi islahatlar yolundadır. ”İslahatların əsas hədəfi Azərbaycanı müasir, inkişaf edən və gələcəkdə inkişaf etmiş ölkəyə çevirməkdir, ölkədə mövcud olan nöqsanları aradan qaldırmaqdır, vətəndaşları narahat edən problemləri tamamilə gündəlikdən çıxarmaqdır, insanların rifah halını yaxşılaşdırmaqdır, daha güclü, qüdrətli dövlət qurmaqdır. Biz bu istiqamətdə məqsədyönlü, hərtərəfli siyasət aparırıq, həm beynəlxalq mövqelərimizi möhkəmləndiririk, həm də regional əməkdaşlıq təşəbbüsləri ilə çıxış edirik" - deyən ölkə başçısı çıxışlarında Azərbaycanın sosial sahəyə çox böyük diqqət göstərən ölkə olduğunu vurğulayır, qeyd edir ki, ”Biz ölkəmizdə bazar iqtisadiyyatı prinsiplərini sosial ədalət prinsipləri ilə birləşdirə bildik və hesab edirəm ki, Azərbaycanın uğurlu inkişafı məhz buna söykənir”. Məhz bunun nəticəsidir ki, Azərbaycan hazırda güclü iqtisadiyyata, güclü orduya, dünya birliyində güclü mövqeyə sahib olmaqla yanaşı, güclü sosial siyasətə malik olan bir ölkəyə çevrilib.

### REGİONLARIN İNKİŞAFI DÖVLƏT BAŞÇISININ FƏALİYYƏTİNİN PRİORİTETİNİ TƏŞKİL EDİR

Həmçinin, onu da vurğulamaq lazımdır ki, iqtisadi qüdrəti getdikcə artan Azərbaycan qlobal böhranla mübarizə dövründə belə bölgələrin yüksəlişi davamlı sosial-iqtisadi inkişaf strategiyasının mühüm tərkib hissəsidir. Və regionların sosial-iqtisadi inkişafını xüsusi diqqət mərkəzində saxlayan və bu istiqamətdə kompleks tədbirlər həyata keçirən Prezident İlham Əliyevin verdiyi tapşırıqların icrasını mütəmadi olaraq şəxsən yoxlaması və bölgələrin təkmil konsepsiyanın icra vəziyyəti ilə bağlı hər il xüsusi müşavirələr keçirməsi bir daha təsdiq edir ki, regionların inkişafı dövlət başçısının fəaliyyətinin prioritetini təşkil edir. Xüsusilə də, Prezident İlham Əliyev müntəzəm olaraq tez-tez regionlara səfər edərək həm görülən işlərlə yerindəcə maraqlanması, sakinlərlə səmimi görüşlər keçirərək onların problemlərini öyrənməsi dövlət başçısının xalq-iqtidar birliyinin göstəricisidir. Elə bu günlərdə - avqustun 12-də dövlət başçısının və birinci xanım Mehriban Əliyevanın Qobustan-Ağsu-İsmayıllı rayonlarına səfərləri zamanı yeni obyektlərin açılışı və Prezidentin Azərbaycan Televiziyasına müsahibəsində əhalini maraqlandıran məsələlərə aydınlıq gətirməsi də deyilənlərin əyani təsdiqidir. ”Mənim bölgələrə səfərlərim müntəzəm xarakter daşıyır, həm vəziyyətlə tanış olmaq, həm də əlavə göstərişlərin verilməsi üçün. Gedən işlərə, bildiyiniz kimi, özüm nəzarət edirəm və son illər ərzində bütün bölgələrdə quruculuq-abadlıq işləri daha geniş vüsət almışdır. Bu gün Ağsu, İsmayıllı rayonlarına səfərim çərçivəsində burada görülmüş və görüləcək işlər haqqında həm göstərişlər verilmişdir, eyni zamanda, məruzələr edilmişdir”,-deyən dövlət başçısı bildirib ki, son illərdə hər iki rayonda böyük infrastruktur layihələri icra edilmişdir. Demək olar ki, infrastruktur layihələrinin əsas hissəsi başa çatmışdır. İstər qazlaşdırma, istər elektrik enerjisi, su təchizatı, yolların tikintisi ilə bağlı çox böyük layihələr icra edilmişdir. Təkcə onu demək kifayətdir ki, dağlıq rayon olmasına baxmayaraq, İsmayıllı rayonunda qazlaşdırma 80 faizdən çoxdur, Ağsu rayonunda 100 faizə yaxındır. Bu iki rayonda son illərdə 10-dan çox elektrik yarımstansiyası inşa olunmuşdur və elektriklə təchizat tam təmin edilib. Yolların çəkilişi ilə bağlı - həm kənd yollarında, eyni zamanda, İsmayıllı-Muğanlı yolunun yeni hissəsində işlər icra edilir. Sosial infrastrukturla bağlı böyük layihələr icra olunub. Hər iki şəhərdə - Ağsuda və İsmayıllıda 160 çarpayılıq xəstəxana tikilmişdir, 100-ə yaxın məktəb inşa edilmiş, ya da əsaslı şəkildə təmir olunmuşdur. İş yerlərinin yaradılması ilə bağlı böyük layihələr icra edilib. Bir sözlə, bu bölgənin gələcək inkişafı ilə bağlı çox güclü zəmin yaradılıb. Çünki bildiyiniz kimi, infrastruktur layihələri icra edilmədən inkişafdan söhbət gedə bilməz.

Dövlət başçısı onu da bildirib ki, bir müddət bundan əvvəl tarixi abidəmiz olan ”Diri Baba” türbəsinin bərpa və konservasiya olunması, həm də onun ətrafında turizm infrastrukturu yaradılması ilə bağlı ilə bağlı göstəriş verdiyini, deyərək vurğulayıb ki, ”Diri Baba” türbəsi öz nadirliyi ilə bütün Qafqaz bölgəsində seçilir. Yaşı 500 ildən çox olan bu türbə əsrlər boyu Azərbaycan xalqı tərəfindən müqəddəs yer kimi tanınıb. Əlbəttə, bizim borcumuzdur ki, bu qədim tarixi abidəni yaşadaq, ona yeni həyat verək, bərpa edək və onun ətrafında mövcud olan şərait də müasir olsun, həmçinin Basqal qəsəbəsinin inkişafı, Basqalın tarixi irsinin qorunması ilə bağlı bir neçə il bundan əvvəl mənim tərəfimdən xüsusi Sərəncam əsasında Dövlət Turizm Agentliyi burada artıq bir müddətdir ki, işlərin aparıldığını, deyərək, bildirib ki, Basqal qəsəbəsi Lahıc qəsəbəsi kimi, bu bölgənin çox qədim tarixi yaşayış məkanı olaraq öz simasını bütün dünyaya açacaq.Bir sözlə, Azərbaycanın inkişaf yolunda inamla irəliləməsinin əsas səbəbi xalqın dövlətimizin başçısına olan etimadıdır. Daim Prezidentimizə sadiqlik nümayiş etdirən Azərbaycan xalqı ötən il Vətən müharibəsi zamanı daha böyük birlik nümayiş edirərək qələbəmizin qazanılmasına töhfələrini verdilər. Qalib dövlətin qalib xalqı təbii ki, iqtisadi inkişaf yolunda bundan sonra da uğurlara nail olacaq, Prezidentimizin rəhbərliyi ilə möhtəşəm proqramların həyata keçirilməsinin şahidi olacağıq.Göründüyü kimi, bu reallıqlar onu deməyə əsas verir ki, Prezident İlham Əliyevin sözü ilə əməli arasında heç bir fərq yoxdur. Verilən vədlər artıqlaması ilə yerinə yetirilib və bu gün də davam etdirilir.

**RƏFİQƏ KAMALQIZI**

# Tarixi yaddaşında zəngin irsimizi qoruyan Şuşa




*Azərbaycanın hər daşında, hər abidəsində bir tarix yaşayır. Xalqın çoxəsrlik tarixi. O tarix ki, əsrlərin daş yaddaşına hopub və hər biri milli-mənəvi, maddi dəyərlərimizdən danışır. Qalaq-qalaq salnamələrin yaddaşıdır, bu tarix. Ölkəmizi qarış-qarış gəzdikcə daş kitablər vərəqlənir və oradan dünyaya səs salan nümunələr ilə yaxından tanış olursan. Tariximiz olan maddi-mənəvi memarlıq abidələri Qız qalası, Şirvanşahlar Sarayı, Möminə Xatun Türbəsi və s. hər biri dünyaya vəsiqə almış irsimizdir. "Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşadan gələn səslərdə böyük bir dünyadan söz açılır.*

Kimlərin səsi, ünü gəlmir bu diyardan? Mir Möhsün Nəvvab, Baba bəy Şakir, İsgəndər bəy Rüstəmbəyov daha kimlər Şuşa bulağından su içməyib? Xüsusi olaraq qeyd edək ki, Şuşada təkcə XIX əsrdə 95 şair, 22 musiqişünas, 58 xanəndə, 12 nüsxabənd, 19 xəttat, 16 nəqqaş, 8 memar, 5 astronom, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidi, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evinin, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qafqazda yeganə Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Belə bir əməl sahibi olmaq əlbəttə ki, onların iç dünyasından yağan bir ideologiyanı göstərir - faşist ideologiyasını. Belə vandallıq əməllərinin müəllifi olanlara nə ad vermək olar? Hərdən susursan da, söz tapa bilməyəndə. Üzeyirlər, Bülbüllər yetirən torpağın səsini-sədasını kömürmək qeyri-mümkündür. Çünki hər daşının yaddaşı bizi qeybdən gələn səslərə yaxınlaşdırır.

### ÇOX GÖZLƏR DİKİLİB BU DİYARLARA

28 ilə yaxın bir tarixdə erməni işğalında qalan torpaqlarımız işğaldan azad olundu. Əsrlərdən səsi eşidilən, hər zaman toy-büsatlı olan Şuşamız tarixin dönəmlərində çox hücumlara məruz qalıb və başını dik tutub, əyilməz, məğlubedilməz olub. Çox gözlər dikilib bu diyara. Hər daşında bir tarix yaşar, bir tarix danışılar. 28 il erməni işğalı altında qalan Şuşamız bu gün azad nəfəs alır. 2021-ci il mayın 7-də Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsi haqqında Sərəncamı bu şəhərin böyük mədəniyyət beşiyi olduğunu bir daha təsdiqlədi.



Zaman-zaman Şuşamızın hər yerindən xalq ruhunu əks etdirən musiqi sədaları eşidilib. Şuşada, Cıdır düzündə festivallar, tədbirlər keçirilib, xalqın ruhu, istəyi öz ifadəsini tapıb. Bu şəhərin Azərbaycan mədəniyyət tarixində özünəməxsus yeri və rolu var. Şuşanın yetirdiyi sənətkarların hər biri mədəniyyət tariximizdə dəsti-xətti ilə seçilib. Azərbaycan muğam sənətinin böyük ustadı, musiqimizin xanı, bu gün haqqında söz açacağımız Xan Şuşinski kimi. Bu gün onun ruhu bu torpaqlarda firavan dolanır. Həsrətlə boylandığı yurd-yuvasına sahibi olaraq pərvaz edir. Səsinin sehri ilə naxış saldığı hər bir küçəsində, yolunda Xanın musiqi dünyasından böyük bir dünya boylanır.

*Şuşanın dağları başı dumanlı,*
*Qırmızı koftalı, yaşıl tumanlı,*
*Dərdindən ölməyə çoxdu gümanım.*

- deyə oxuyan Xan Şuşinski bu məkanın gözəlliyini musiqinin dili ilə yaddaşına köçürüb:

*Şuşanın hər yandan gəlir sorağı,*
*Tərifə layiqdir İsa bulağı,*
*Dağları, bağları, qızlar oylağı*

İlin bu günündə 20 avqust tarixində dünyaya göz açan sənətkar ömrünün son gününə qədər səhnədə öz səsini, nəfəsinin ahəngini qoruyub saxlaya bildi. Musiqi beşiyi tək qəbul olunmuş Şuşamızda dünyaya göz açan sənətkar ona qədər və eləcə də müasirləri olan böyük bir sənət məktəbindən bəhrələnmiş, maarifçilik ideyaları yaşayan insanlardan böyük insanlıq dərsini əxs etmişdir. Böyük sənətkarların beşiyində boy atan balaca oğlan tez bir zamanda çalın-çarpaz, enişli-yoxuşlu yolları keçdi və adı sənətin fövqündə hallandı. Tərcümeyihalı zəngin bir xəzinə olan sənətkar böyük bir məktəbin müəllifinə çevrildi. Sənət tarixinə tərcümeyi-halı həkk olunan yazılarda qeyd edilir ki, Xan Şuşinskinin əsl adı İsfəndiyar olsa da, tez bir zamanda, bu isim dəyişildi. İsfəndiyar Aslan oğlu Cavanşirov kimi deyil, Xan Şuşinski kimi tanındı. Bu ad ona 12-13 yaşlarında məclislərin birində verildi. Qeyd edim ki, böyük sənətkar Şuşanın bünövrəsini qoyan Cavanşir sülaləsindən olan Aslan bəyin ailəsində dünyaya göz açıb.















Ancaq sovet hakimiyyəti qurulduqdan sonra Ballıca kəndində, Şuşada mülkü və dörd kəndi olan Aslan bəyin bütün var-dövləti müsadirə edilir. Bu hadisədən sonra Aslan bəy Bərdəyə köçür. Beləliklə, İsfəndiyarın sənətə gəlişində Segah İslamın xüsusi rolu olub. Belə ki, Segah İslam məclislərin birində səsini bəyəndiyi İsfəndiyarı özünə şagird götürüb. Xan Şuşinski çox məsuliyyətli insan olub. Xan səsini qoruyan idi. O, müəyyən təamlardan, nemətlərdən həmişə özünü təcrid edib. Bunun səbəbini soruşanda isə, söyləyib ki, İlahi əmanətinə naxələf çıxa bilmərəm. Xan Şuşinski gənclikdə ona verilən Xan adının məsuliyyətini ömrünün sonuna qədər daşıyıb. O, Azərbaycan musiqisinin həqiqi Xanı olub. Cabbar Qaryağdıoğlunun: - "Səsin sənə qulaq asmadı, - oxuma, zökəm oldun, - oxuma, yorğun oldun, - oxuma. Bakının dəli havasından özünü qoru. Küləkli havada bayıra çıxma, istidən tərləsən belə, soyuq su içmə", - sözlərini ömrü boyu unutmayan Xanın səsi həmişə yerində olub. Yaşının ən ahıl çağlarında belə, o, səs imkanlarını qoruya bilib.

## "ŞUŞANIN DAĞLARI DEYİL DUMANLI"

Sənətkarın bir sıra bəstələri də olub. Çox zaman xalq mahnıları kimi təqdim olunan "Qəmərim", "Şuşanın dağları", "Ay gözəl", "Məndən gen gəzmə", "Al yanağında", "Dağlarda çiçək", "Gözəl yarım", "Ölürəm, a Ceyran bala" mahnılarını Xan Şuşinski bəstələyib. Vurğulamaq yerinə düşər ki, "Şuşanın dağları" mahnısının sözləri də Xana məxsusdur. Bu mahnının sözlərinə görə, hətta vaxtilə onu çək-çevirə də salıblar - "Şuşanın dağlarının başı niyə dumandır? Bununla nə demək istəyirsən?". Xan Şuşinski da bu sualın cavabında bildirir ki, Şuşa dağlarının başı həmişə dumanlı olur. Yenə əl çəkmirlər. Nəhayət, Xan məcbur olub, bir müddət bu mahnının sözlərini dəyişərək, "Şuşanın dağları deyil dumanlı" kimi oxuyur.

"Mirzə Hüseyn segahı" onun ifasında yeni bir nəfəslə təqdim olunur. Adətən də, onu "Mirzə Hüseyn segahı"nın ikinci müəllifi adlandırırlar. Çünki 120-130 il sürən uzun fasilədən sonra bu muğama Xan yenidən "Manəndi müxalif" şöbəsini əlavə edib. Simfonik orkestrin müşayiətilə ilk dəfə simfonik muğamlarda solo hissəni Xan oxuyub.

Musiqi tariximizdə ilk duet də böyük sənətkarın adı ilə bağlıdır. Azərbaycan musiqi tarixində ilk duet Şövkət xanım Ələkbərova ilə Xan Şuşinskinin ifasında səslənib. Deyilənə görə, Üzeyir Hacıbəyli Xan Şuşinskinin ifasında mahnılarını dinləməkdən xüsusi zövq alırmış. Xüsusən də, "Qaragöz" mahnısını. Yeri gəlmişkən, onu da deyək ki, 1926-cı ildə bəstələnən bu mahnının ilk ifaçısı da elə Xan Şuşinski olub. "Qarabağ şikəstəsi"ni oxumağı çox sevərmiş. Şikəstə ondan əvvəl məclisdə 3-4 xanəndənin ifasında səslənsəydi də, Xan bütün çıxışlarında həmişə birinci "Qarabağ şikəstəsi"ni oxuyarmış. Onun ifası haqqında Cabbar Qaryağdıoğlu deyir ki, "Seyidlə üç-dörd il idi Qarabağa getmirdik. Dedik sənin səsinlə Qarabağın axar-baxarlı dağlarını, Turş suyunu, İsa bulağını, Cıdır düzünü, Topxana meşəsini gedib gəzib gələk. Çox sağ ol. Gəzdik gəldik". Xanın səsi Qarabağın ab-havası idi.

Xan geniş səs diapazonuna sahib olmaqla yanaşı, Azərbaycan mədəniyyətini bütün dünyaya tanıtması ilə də xalq arasında böyük müvəffəqiyyət qazanmağa nail olub. Azərbaycan milli musiqisinin təbliği yolunda böyük nailiyyətlərə imza atıb. O, mürəkkəb muğamların mahir bilicisi olub. Səsini istədiyi kimi dəyişməkdə, zəngulə vurmaqda bir çox tanınmış xanəndələrin diqqət mərkəzində olub. Xan təvazökar, sadə sənətkar olub. Sirlərini dostları, həmyaşıdları ilə bölüşüb. Yoldaşlıqda, dostluqda sadiq olan Xan Şuşinski ailədə də qayğıkeş, mehribanlığı ilə sevilib. Azərbaycan musiqi tarixinin əvəzolunmaz korifeyi Xan Şuşinski səsinin yadigarı kimi cəmisi 240 dəqiqəlik lent yazısı qalıb. Xan Şuşinski yaradıcılığına xas olan cəhət ondakı təkrarolunmaz ifa üslubu idi. Əksər müasirlərindən fərqləndirən xüsusiyyəti onun güclü və nadir təsadüf olunan tembrli səsə malik olması və vokal texnikasına ustalıqla yiyələnməsi idi. Xanın repertuarında "Mahurhindi", "Bayatı-Qacar", "Qatar" muğamları ilə yanaşı, ritmik "Arazbarı", "Heyratı" muğamları, xalq mahnı və təsnifləri geniş yer tutmuşdur. Xan onları xüsusi zövqlə ifa edir, hər ifasında da onları yeni-yeni xallarla zənginləşdirir və inkişaf etdirirdi. Zaqafqaziya xalqlarının 1934-cü ildə Tiflis şəhərində keçirilən ilk müsabiqəsində Xan Şuşinski birinci dərəcəli mükafata layiq görülmüşdü. Hələ o zamana qədər məşhur xanəndə kimi ad çıxarmış Xanın şöhrəti artıq Azərbaycanın sərhədlərini aşıb daha uzaqlara yayılmışdı. Xan Şuşinski, nəinki muğamın bilicisi idi, eyni zamanda, çox sayda xalq mahnısını yaddaşında qoruyub yaşadırdı. Həqiqi yaradıcılıq qabiliyyətinə sahib insan kimi, o, xalq musiqisi xəzinəsini öz mahnıları ilə də zənginləşdirmişdir. Xan Şuşinski ömrünün 50 ildən çoxunu muğamın yaradıcı şəkildə inkişafına həsr etmişdir. O, milyonların sevimlisi kimi tanınırdı, onun ifalarını heyranlıqla qarşılayırdılar.




## ZAMAN YETİŞDİ "XARIBÜLBÜL" FESTİVALI ŞUŞADAN DÜNYAYA SƏS SALDI

Xan Şuşinski çox sayda istedadlı xanəndə yetişdirmiş və milli musiqi sənətinin inkişafına böyük təsir göstərmişdi. Muğam sənətinə müasir dövrümüzdə olan münasibətin nəticəsidir ki, Heydər Əliyev Fondu tərəfindən muğam albomu buraxılmış və sənət korifeyləri sırasında Xan Şuşinskinin də səsi yazılmış lentlər yüksək, nəfis bir şəkildə bu topluya daxil edilmişdir. İndi demək olar ki, dünyanın bir çox ölkəsində Xan Şuşinski ifası dinlənilir, Azərbaycan muğamları fərqli bir şəkildə təqdim olunur. Bu gün işğaldan azad olunan Şuşamızda yenidən toy-büsata qovuşub. Azərbaycanın mədəniyyət paytaxtı Şuşanın "Xarıbülbül" musiqi festivalına ev sahibliyi etməsi bu sənət beşiyindən olan sənətkarların ruhunu şad etdi. 2020-ci ilin noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. Şuşada bu gün bayrağımız dalğalanır və Şuşada aparılan abadlıq-quruculuq işləri Xan Şuşinski kimi haqq dünyasında olan və ruhu göylərdə dolaşan böyük sənətkarlarımızın ruhunu şad edir.

28 illik zamandan sonra Şuşa yenidən öz həyatına qovuşdu. Erməni işğalından azad olan qədim şəhər azad nəfəs aldı. Azərbaycan Prezidenti İlham Əliyevin siyasi iradəsi ilə müzəffər ordumuz 44 günlük Vətən müharibəsində həsrətində olduğumuz torpaqlarımızı geri qaytardı. Buranın hər qarışında qan izi olduğundan Şuşa bizim üçün bir and yerinə, müqəddəs məkana çevrilib.

Bu gün Şuşa yeni bir ab-havadadır. Abadlıq-quruculuq işlərinin, yeni infrastrukturun yaradılması, tarixi-mədəni dini abidələrin bərpa və inşası və s. Şuşada böyük bir həyatın canlanmasından xəbər verir. Şuşada üçrəngli Azərbaycan bayrağının dalğalandırılması bu torpaqda Böyük Qayıdışın rəmzi idi. Qısa bir zamanda abadlıq-quruculuq işlərinə başlanıldı. İki ilə yaxın bir müddətdə böyük işlər görüldü və bu gün abadlıq-quruculuq işlərinin sürəti artıb. Şuşanın tarixi abidələrinin bərpasına start verildi. Tezliklə, Natəvan bulağı bərpa olundu, Güllələnmiş heykəllər əzəli torpağına döndü. Uzun illər idi ki, heykəlləri güllələnmiş Xan qızı, Üzeyir bəy, böyük nəğməkar Bülbül öz doğma yurdlarına qayıdacaqları günü gözləyirdilər. Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərində bu qədim Azərbaycan şəhərinə gələn qonaqları salamlayır. Bu gün Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün Şuşadakı büstləri öz məkanlarında rahat nəfəs alır. Azad Şuşa şəhərində görkəmli Azərbaycan bəstəkarı Üzeyir Hacıbəylinin heykəli də ucaldılıb. Zaman yetişdi "Xarıbülbül" festivalı Şuşadan dünyaya səs saldı. Xalqın milli və klassik musiqisi dağları-dərələri aşdı. Bundan qürurverici nə ola bilərdi? Vaqif Poeziya Günləri sözümüzün, şeirimizin, ədəbiyyatımızın bayramına çevrildi. Bu gün Xan Şuşinskinin ruhu bu torpaqda yaşanılanlardan şaddır.

*Şuşada axşamlar yanar ulduzlar,*
*Onlardan gözəldi gəlinlər, qızlar,*
*Oturub yol üstə yarını gözlər.*

***Zümrüd BAYRAMOVA***

# Sosial sığortalardan hansı hallarda yararlana bilərik?

*Sosial sığorta dövlət sosial siyasətinin ən mühüm istiqamətlərindən biridir. Ümumi qəbul edilir ki, bu, sosial, əmək və sosial-iqtisadi münasibətlərin tənzimlənməsinin real mexanizmlərindən biridir. İşəgötürənlərin istehsalı təşkil edənləri və müəssisələrdə çalışanları, habelə bu sahədə peşəkarlıqla çalışanları əhatə edən geniş fəaliyyət sahəsidir.Sosial sığorta sivil cəmiyyətin ən mühüm sərvətidir.*




2 iyun 1903-cü il dövlət sosial sığortasının rəsmi yarandığı tarix hesab olunur. Vaxtilə İmperatorların ən yüksək icazəsi ilə ”Zavod, mədən və dağ-mədən sənayesi müəssisələrində fəhlə və qulluqçuların, habelə onların ailə üzvlərinin bədbəxt hadisələri nəticəsində zərər çəkmiş şəxslərin mükafatlandırılması qaydaları” tətbiq edilmişdir.Burada işinin xarakterindən asılı olmayaraq bütün işçilərə xəstəlik, hamiləlik və doğuş, xəsarət nəticəsində müvəqqəti olaraq qazancının itirilməsi halında müavinətlərə zəmanət verməyi nəzərdə tutulmuşdur.Sosial sığorta sisteminin formalaşmasının ilk mərhələsi idi. Sosial sığortanın inkişafının ikinci və ən uzun mərhələsi 60 il davam edib.1964-cü ildə SSRİ Nazirlər Sovetinin ”Kolxoz üzvlərinin, mütəxəssislərin, baş mühasiblərin dövlət sosial sığortası haqqında” fərmanının qəbulu ilə ilk dəfə olaraq kənd təsərrüfatı işçilərinin ayrı-ayrı kateqoriyaları müalicə və istirahət üçün müavinət almağa başlayıblar. Xüsusilə doqquzuncu beşillik (1971-1975) illərində işçilərin sosial sığortasını yaxşılaşdırmaq üçün bir çox yeni qərarlar qəbul edilmişdir.Buraya xəstə uşağa qulluq üçün müavinətlərin artırılması, işləməyən əlillərə müavinətlərin verilməsinin yaxşılaşdırılması, hamiləlik və doğuş zamanı qadınlara verilən müavinətlər daxildir. Davamlı təcrübənin hesablanması qaydalarının təkmilləşdirilməsi xüsusi əhəmiyyət kəsb edirdi. Müvəqqəti əlilliyə görə müavinətlərin hesablanması zamanı bonusların uçotu üçün yeni qaydalar tətbiq edilmişdir. 1970-ci illərin sonunda həmkarlar ittifaqlarının bütün rayon komitələri sosial sığorta təlimatçısının tariflərini, sonra isə baş mühasibin sosial sığorta üzrə müavininin tariflərini tətbiq etdilər.Həmkarlar ittifaqı hərəkatının ictimai xarakter daşıması, ölkədə gedən sosial-iqtisadi proseslərə real təsir olmaması sosial sığortanın ən mühüm prinsiplərinin - cəmiyyətin və dövlətin qayğıya görə məsuliyyətinin həyata keçirilməsini tam təmin edə bilməmişdir.Ölkədə özəlləşdirmə getdikcə sürətlə gedir, getdikcə daha çox yeni müəssisələr yaranır, mülkiyyət formaları dəyişir. Mənfəət dalınca bir çox müəssisələr, yeni yaradılmış səhmdar cəmiyyətləri, müxtəlif kommersiya strukturları öz işçilərinin sosial sığorta xərclərini süni şəkildə aşağı salmağa, müəssisələrində sağlamlıq proqramlarını, o cümlədən sanatoriya müalicəsini ixtisar etməyə başlayırlar. Dövlət zəmanəti ilə müavinətlərin, sanatoriya-kurort müalicəsi üçün verilməsi ilə bağlı olduğundan, sosial müdafiə sahəsində vətəndaşların hüquqlarının pozulması tendensiyası açıq şəkildə müşahidə olunur.Bu gün ölkə iqtisadiyyatında, əhalinin sosial müdafiəsinin inkişafında çox şey dəyişir. Bu proseslər dövlət sosial sığortasından yan keçmir. Hazırda istehsalatda bədbəxt hadisələrdən zərər çəkmiş və ya müxtəlif vaxtlarda peşə xəstəliyinə tutulmuş şəxslərə müavinətlər müntəzəm və vaxtında ödənilir. Bu mexanizm düzgün işləyir və sıradan çıxmır. Lakin dövlətin sosial sığorta sistemi qarşısında qoyduğu vəzifələri uğurla həll etmək üçün sosial sığortanın bütün mexanizmlərindən istifadə edərək irəli getmək lazımdır.Azərbaycanda 2022-ci ilin yanvar-mart aylarında muzdlu işçi sayının və əməkhaqqı fondunun ”ağarması” prosesi şəraitində məcburi dövlət sosial sığorta haqları üzrə daxilolmalar 1 047 408,3 min manat təşkil etməklə ötən ilin müvafiq dövrü ilə müqayisədə 17% və ya 152 118,3 min manat artıb, daxilolmalar üzrə proqnoz 86 602,1 min manat artıq icra edilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 19% artaraq 649 803,9 min manat təşkil edib, proqnoz 118,2% icra olunub.İşsizlikdən sığorta haqları üzrə daxilolmalar ötən ilin eyni dövrü ilə müqayisədə 16,4% artaraq 35,3 mln. manat olub, proqnoz 112.3% icra edilib. Qeyri-büdcə təşkilatları üzrə daxilolmalar 18,1% artaraq 25,7 mln. manat təşkil edib, daxilolmalar üzrə proqnoz 122,5%



icra olunub. **İqtisadçı Azər Mehtiyev** SİA-ya açıqlamasında Sosial sığortalar insanların həyatını insanların yaşam durumu ilə bağlı baş verə biləcək müəyyən arzu olunmaz halların aradan qaldırılması üçün tətbiq olunan sığorta növüdür deyərək qeyd edib. Sosial sığortaların müxtəlif növləri var. İnsanların pensiya alması üçün, tibbi sağlamlıqlarını qorunması üçün, iş yerini itirilməsinə görə işsizlik sığortası, əmək qabiliyyətlərini itirdiyinə görə əllikk halların yaranması ilə bağlı sığortalar mövcuddur. Bu sığortaların bəziləri həm icbari, həm könüllü ola bilər. Məsələn, pensiya fonduna aid olunmalar icbari xarakter daşıyır. Azərbaycanda bu növ təqaüdə çıxma sığortası hələ ki, dövlət tərəfindən həyata keçirilir. Dövlət Sosial Müdafiə Fondunda insanlar pensiya yaşına çatdıqda həmin sığorta hesabına pensiya alırlar. Ancaq eyni zamanda xaricdə özəl pensiya fondları vardır ki, insanlar icbari sığortadan əlavə həm də bu cür fondlardan yararlana bilirlər. Tibbi sığorta həm könüllü həm icbari ola bilər. İcbari tibbi sığortanın mahiyyəti ondan ibarətdir ki, insanlar sadəcə olaraq imkanı olanda deyil, tibbi müayinəyə ehtiyacı olan zaman müraciət edirlər və bunun hesabında da həmin şəxsin müalicə alması zamanı imkanı olub-olmamasından asılı olmayaraq həmin icbari tibbi sığorta hesabına insanlar tibbi xidmətlərdən yararlanmış olur. Yəni, sistemin mahiyyəti həmrəylik sistemidir. Həm sağlam insanlar həm xəstə insanla müayinəsi üçün pul vermiş olurlar. Təbii ki, bu dövlət tərəfindən təyin olunan normalar çərçivəsində olur. İnsanlar müvəqqəti olaraq iş yerini itirdikdə insanlar bu fond hesabına işsizlik müavinatını əldə etmiş olurlar. Bu cür sığortalar adətən hökümət tərəfindən icbari sığorta kimi tətbiq olunur.Düzdür, hələ ki, icbari sığortanın yalnız işləyən şəxslər ödəyir, müəssələr ödəyir. Bir çox kategoriyalar var ki, pensiyaçılar, uşaqlar, hərbçilər onların tibbi sığortaları dövlət tərəfindən ödənilir. Özünəməşğulluq əhalinin hələ ki, hər hansı rəsmi formada qeydiyyatdan keçmədən işləyənlərin sığortası 2024-cür ilin yanvarın 1-nədək dövlət tərəfindən həyata keçirilir. Qanunda deyilir ki, 2024-cü ildən həmin şəxslərin özləri hər ay icbari tibbi sığorta ödəməlidirlər. İcbari tibbi sığorta paketinə daxil olan xidmətlər siyahısı hökumət tərəfindən təsdiq olunur. Orada hazırda 2550-dən çox tibbi xidmətlər mövcuddur. Və insanlar həm də Təbibin tərkibində olan dövlət xəstəxanalarına getməklə bu xidmətlərdən faydalana bilərlər.Sosial sığorta, əslində, müvafiq normativ və aktların nəzərdə tutur və işçilərin əmək münasibətlərin zamanı gəlirləri müəyyən olunmuş formada və həcmdə vəd edilməsi, həm də onların itirilmiş tərəflərin qarşısını almağa yönəlmiş bir təminat formasıdır və bu, bütün dünyada qəbul edilir.



Bu sözləri **iqtisadçı Razi Abbasbəyli** deyib. Əsasən, işçilərin sosial sığorta olunması prinsipləri sosial hadisələrin müəyyən edilməsi növləri vardır. İcbari dövlət sığortası işə götürənlər tərəfindən qanunvericilikdə nəzərdə tutulmuş qaydada və müəyyən edilmiş məbləğdə müəyyən edilir. Sosial sığorta, əslində, müvafiq qaydada təmin edilir və sosial sığorta şəhadətnəmələri verilir. İşçilərin sosial sığorta hüquqlarını məhdudlaşdıran və yaxud da pozan hər hansı fiziki şəxs qanunvericilikdə nəzərdə tutulmuş qaydada məsuliyyətə cəlb olunur. Bu baxımdan da, sosial sığortanın əhəmiyyəti, xüsusilə də, işçilərin gələcəkdə mənafelərini əmək fəaliyyəti dövründə hər hansı zədə aldıqda və ya əmək qabiliyyətini itirdikdə bu sığorta təminatı həyata keçirilir. İşə götürən tərəfindən bu qaydalar pozulduqda ona 6 ay müddətində yeni iş yerinin tapılmasına qədər sosial sığorta ödənişləri həyata keçirilir ki, onu da işə götürən ödəməlidir. Azərbaycanda mövcud qanunvericiliyə görə sosial sığortanın 2 formada məcburi və könüllü qaydada tətbiq olunur. Məcburi dövlət sosial sığortası sığorta edənlər tərəfindən bütün dövlət müqaviləsi, kontraktlar üzərində həyata keçirilməsi nəzərdə tutulur.

Qanunvericiliyə müəyyən edilmiş əmək pensiyaları da sosial sığortaya aiddir. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinət, hamiləliyə və doğuma görə müavinət, uşağın anadan olmasına görə birdəfəlik müavinət, eyni zamanda, nəzərdə tutulmuş yaş həddinə çatana qədər uşaqlara qulluq müavinəti də mövcuddur. Sosial kurort və istirahət mərkəzlərindən yararlanmaq üçün qismən və tam müavinətlər mövcuddur. Sanitariya və kurort üzrə xərclərin tam ödənilməsi və qismən ödənilməsi Azərbaycanda hələ tam olaraq həyata keçirilmir. Sosial sığortanın Azərbaycanda 7-yə yaxın növü mövcuddur. Amma Azərbaycanda Nazirlər Kabinetinin 2020-ci ildə verdiyi qərara uyğun olaraq ölkənin bütün əhalisinin icbari tibbi sığortanın tətbiqi həyata keçirilmişdir. İcbari tibbi sığorta növləri üzrə Azərbaycanda müxtəlif kateqoriyalar tətbiq olunur. Bu ildən etibarən icbari tibbi xidmətlərinə əlavə daxil etmələr də vardır. Bunlar analoji xəstələrin müalicəsi, bir sıra cərrah əməliyyatların həyata keçirilməsi siyahıya əlavə edilir. Azərbaycanda ağır transplantasiya əməliyyatları nəzərdə tutulmuş xəstələrə də aid edilib. Bu baxımından, aparılan islahatları mütərəqqi hesab etmək olar, ümid edirəm ki, yaxın gələcəkdə icbari tibbi sığorta sisteminə daxil edilən tibbi xidmətlər kifayət qədər genişlənəcək. İcbari sığorta üzrə növlər Cənubi Qafqazda ən çox tətbiq olunan prosesdir. Bir çox ölkələrdə də Azərbaycanda tətbiq olunan icbari tibbi sığortalar tətbiq olunmayıb. Baxmayaraq ki, bir neçə ölkə illər öncə Azərbaycanla sığorta sistemin tətbiqinə başlayıb, amma hələ ki, onlarda göstərilən tibbi xidmətlər ölkəmizdəki kimi zəngin deyil.

***Havar Şəfiyeva***

ARAŞDIRMA

## Ətirlərin qarşı tərəfə təsiri necədir?





“Ətirlər hər bir insanın xarakterinə uyğun seçilir. Seçim bəzən də fəsillərə uyğun olur”. Bu sözləri SİA-ya açıqlamasında psixoloq Vüsalə Əmiraslanova deyib.Onun sözlərinə görə, ətirlərin qarşı tərəfə təsiri də insanların xarakteri ilə bağlıdır: ”Bəzən insanlara sakit halda xoş gəlməyən ətir, əsəbi halda xoş gələ bilər.Hamiləlik dönəmi var ki, bu ərəfədə də qoxuya qarşı həssaslıq yaranır”.Psixoloq sözlərinə belə davam edib: ”Qoxunun qarşı tərəfə çox çatmaması üçün ətirlərdən normal istifadə etmək lazımdır. Bu, həm qarşı tərəfə olan hörmətin əlamətidir, həm də özünü yaxşı hiss etməsi üçün lazımdır.Hər bir insanın spesifik dəri iyi var. Bəzən eyni ətri fərqli insanlar istifadə etsələr də, başqa iylər hiss olunur. Bu da qarşı tərəfin həmin anda psixi durumundan və xarakterindən asılıdır”.

***Ayşən Vəli***

## “O gözəl yerləri bərpa edəcəyik”



Laçın rayonunun Zabux kənd inzibati ərazisinə daxil olan Sus kəndinin sakini Vaqif Həsənov 30 il əvvəl tərk etdiyi doğma yurda qayıtmağa hazırdır. İşğal dövründə qanunsuz məskunlaşdırılmış ermənilər kənddən çıxarıldıqdan sonra laçınlı ağsaqqal qayıdıb orada yaşamaq, ata-baba ocağını bərpa etmək istəyir. SİA xəbər verir ki, bu fikirləri Sus kəndinin sakini Vaqif Həsənov bildirib.Sus kəndinin sakini Vaqif bəy qeyd edib ki, ”Ermənilər Laçını işğal edəndə də yandırıblar, indi tərk edəndə də yandırırlar. Amma biz o gözəl yerləri bərpa edəcəyik”. Tezliklə doğma yurda qayıtmağa hazırlaşan keçmiş məcburi köçkün Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə, Birinci vitse-prezident Mehriban Əliyevaya, torpaqlarımızı işğaldan qurtaran rəşadətli Azərbaycan Ordusuna, qəhrəman əsgər və zabitlərimizə minnətdarlıqlarını ifadə edib, Allahdan şəhidlərimizə rəhmət, qazilərimizə şəfa diləyib.Dövlət Komitəsinin hazırladığı videoçarxlarda Laçının, Zabuxun, Susun sakinləri doğma yurda qayıdışla bağlı fikirlərini bölüşürlər.

***Banuçiçək Hüseynli***

*Valideynlərinin mübahisələrinə şahid olan və bunu davamlı olaraq yaşayan uşaqlarda depressiya, əhval-ruhiyyə pozğunluğu, intihar, təşviş pozğunluqları, şəxsiyyətlərarası münasibətlərdə problemlər, evlilik problemləri, zorakılığa meyil, maddə asılılığı və cinayətkar davranış halları artır.Əhəmiyyətli olan həll yoludur. Mübahisə zamanı nalayiq sözlərdən istifadə edilməməlidir. Həll olunan və uzadılmayan mübahisələr uşaqlara çox da mənfi təsir göstərmir. Lakin unutmaq lazım deyil ki, uşaqlar hər şeyi hiss edir və başa düşür.Valideynləri boşandıqdan sonra uşaqların emosional problemləri ilə yanaşı, yuxu problemləri də müşahidə oluna bilər.*

# Boşanmada uşaq kimə verilməlidir?





Tək yatmaq istəməmək, yuxuya getməkdə çətinlik çəkmək, narahat yuxu, tez-tez oyanmaq, sağlam yatmamaq, kabuslar görmək, yuxu zamanı qorxu kimi hallar ümumi şərtlərdir.Valideynlər, söhbət əsnasında uşağın qarşısında göstərdiyi duyğular və valideynlərin bu qərarı necə izah edəcəyi də uşağın boşanma qərarı ilə bağlı qəbulunu təyin edəcək. 5 yaşdan kiçik uşaqlar üçün təfərrüatsız qısa, sadə sözlərlə izahatlar kifayətdir.Boşanma prosesində uşaqlarda görülən digər təsir hirs, narahatlıq, günahkarlıq və depressiyadır. Bu hisslərlə uşaqlar boşandıqdan sonra valideynlərinin yanında ola bilmədiklərinə görə kədərlənirlər.Boşanma müddətində yaşadığınız mənfi halları uşağınıza danışmalısınız:

- Atalarını uşaqlara pisləməyin.
- Boşanma prosesində uşağın məktəbi dəyişdirilməməlidir.
- Uşaqlar hissləri ilə üzləşməlidirlər.
- Uşağa tək qalmayacağını hiss etdirmək lazımdır.
- Onların kədərinə biganə yanaşmayın.
- Onların özlərini günahkar hiss etmələrinə şərait yaratmayın.

Boşandıqdan sonra uşaq eyni evdə alışdığı həyat nizamını itirir. Valideynləri ilə vaxt keçirmək üçün uşaq hər iki yeni nizama uyğunlaşa bilməlidir. Ananın yeni həyatı və atanın yeni həyatı uşağa iki ayrı həyata alışmaq zərurətini gətirir.2015-ci ildə Azərbaycanda 68 985 nikah qeydə alınıb. Azərbaycanda boşanma səbəbləri arasında əsas olan xasiyyətlərin uyğunsuzluğudur. Əvvəlki illərlə müqayisədə uşaq olmaması səbəbindən boşananların sayı isə azalıb.2015-ci ildə Azərbaycanda xəyanətə görə boşanmaların sayı 413, sərxoşluqla bağlı 369, narkomaniya ilə bağlı 171, maddi duruma görə 302, xəstəliyə görə boşanmaların sayı üzrə 224 fakt qeydə alınıb. Boşanmalar daha çox 25-35 yaş arası insanlar arasında olur.2021-ci ildə Azərbaycanda cari ilin yanvar-fevralında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 5672 nikah və 2417 boşanma halları qeydə alınmış və əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,5, boşanmaların sayı isə 1,5 olmuşdur.Cari ilin yanvar-fevral aylarında Ədliyyə Nazirliyinin rayon (şəhər) qeydiyyat şöbələri tərəfindən 9606 nikah və 2505 boşanma halları qeydə alınmış və ötən ilin müvafiq dövrü ilə müqayisədə əhalinin hər 1000 nəfərinə nikahların sayı 3,5-dən 5,9-a qədər artmış, boşanmaların sayı isə dəyişməyərək eyni səviyyədə qalmışdır.Bəs, boşanan cütlüklərdə uşaq kimə verilməlidir? Bu barədə qanunvericilikdə vəziyyət necədir? Ümumiyyətlə, uşağın anada, yoxsa atada qalması daha məqsədəuyğundur? SİA mövzu ilə bağlı araşdırma apararaq psixoloq, sosioloq, ekspert və vəkillərin fikirlərini öyrənib.





**Psixoloq Fidan Nizamova**: "Uşağa başa salmaq lazımdır ki, ailədə boşanma olduqda ana və ata boşanır. Bunun uşağa heç bir təsiri olmamalıdır. Ata və ana yenə də onun valideyni olaraq qalır. Hər iki tərəfin uşağa görüşmək üçün icazə verməməsi onun üçün çox böyük travmadır. Əgər ana uşağı atası ilə görüşməyə qoymursa, illər keçdikcə, o uşaqda anaya qarşı aqressiya yarana bilər. Bunu mütləq nəzərə almaq lazımdır.Hər bir uşaq üçün bu proses çox ağırdır. Hər ayrılıq uşaq üçün travmadır. Çünki heç bir uşaq valideynsiz qalmaq istəməz.Ayrılıq prosesində ayrılıqdan sonra hər iki tərəfin qarşı tərəfə hörmətlə yanaşması, onun ata və ya ana haqqına qəti şəkildə girməməsinə xüsusi nəzarət edilməlidir. Onun pis ata və ya pis ər olduğunu vurğulamaq, uşaqda belə fikirlər oyatmaq yanlışdır. Bu uşaqlar yetərsizlik duyğusu ilə yaşayacaq və özgüvən problemi yaranacaq. Həmçinin, belə uşaqlarda insanlara güvən problemi ilə bağlı ciddi hallar olacaq.Unutmaq lazım deyil ki, onlar hər zaman balaca uşaq olaraq qalmırlar. Bir gün onlar böyüyəcək və həqiqəti öyrənəcək. Heç bir qüvvə valideynə və ya övlada olan sevgini basdıra bilməz. Yaxşı olar ki, valideynlər boşandıqda bunun uşaqla bağlı olmadığını başa salsınlar. Bir valideynin arxasınca digər valideynin uşağın yanında danışması heç düzgün deyil. Bəlkə uşaq dediyinizi eşidəcək və sizə inanacaq, amma zamanı gəldikdə hər şeyi dərk edib sizə qarşı çıxacaq".

**Vəkil Turan Abdullazadə**: "Validеynlik hüquqlarından məhrumetmə Ailə Məcəlləsinin 64-cu maddəsində əks olunub. Bu, həm qadına, həm də kişiyə aid edilə bilər.Bəs, hansı halda ana və ya ata valideynlik hüququndan məhrum edilə bilər?

- öz valideynlik vəzifələrini yerinə yetirmədikdə;
- alimenti qəsdən ödəmədikdə;
- heç bir üzrlü səbəb olmadan uşağı doğum evindən və ya hər hansı sosial xidmət müəssisəsindən götürməkdən imtina etdikdə;
- valideynlik hüquqlarından sui-istifadə etdikdə;
- uşaqlara qarşı məişət zorakılığı ilə bağlı hərəkətlər törətdikdə;
- xroniki alkoqol və narkomaniya xəstəsidirsə;
- uşaqların sağlamlığına və ərinə qarşı qəsdnən edildikdə cinayət törədildikdə.

Burada göstərilən hallardan başqa azyaşlı uşaq heç bir halda anasından alına bilməz. İstər yerli, istərsə də beynəlxalq qanunvericiliyə əsasən azyaşlı uşaq bioloji cəhətdən anaya daha çox bağlıdır deyə ananın yanında qalması daha məqsədə müvafiqdir.Xəyanət faktoru uşağın anadan alınması üçün əsas deyil. Azərbaycan məhkəmələri adətən xəyanət halında uşağı anadan ayırmır.10 yaşından uşaqda isə onun kimə verilməsi öz fikri əsasında müəyyən edilir".



**Jurnalist Araşdırmaları Mərkəzinin sədri, Yenisabah.az saytının baş redaktoru Seymur Verdizadə:** "Hətta sülh yolu ilə, yəni qarşılıqlı razılaşma əsasında baş verən boşanmalar da uşaqlara mənfi təsir göstərir. Çünki onlar valideynlərindən birini itirirlər. Halbuki uşağın hər iki valideyninin əhatəsində böyüməsi onun kamil şəxsiyyət kimi yetişməsini sürətləndirə bilərdi.Hesab edirəm ki, valideynlər boşanmadan maksimum yayınmağa çalışmalıdırlar. Uşaqlarının xatirinə maksimum dözüm göstərməlidirlər. Birgə addımlamaq mümkün olmayanda isə dost kimi ayrılmağı bacarmalıdırlar. Təəssüf ki, Azərbaycan ailələrinin əksəriyyətində boşanmalar dava-dalaşla, qalmaqalla müşahidə olunur. Nəticədə tərəflər düşmənə çevrilir, sözün təkcə məcazi deyil, həm də həqiqi mənasında bir-birinə güllə atırlar. Biz boşanmaların qətllərə səbəb olduğunun dəfələrlə şahidi olmuşuq.Boşanan tərəflər ayrı-seçkilik qoymadan uşaqların təlim-tərbiyəsinin qeydinə qalmalıdırlar. Həm ata, həm də ana uşaqların yaxşı yaşaması, yaxşı təhsil alması üçün əlindən gələni etməlidir. Uşaqların mütləq anada, yaxud atada qalmasıyla bağlı hökm vermək düzgün deyil. Məncə, kimin maddi durumu yaxşıdırsa, kim övladlarının qayğısına daha yaxşı qalacaqsa, uşaqlar onda qalmalıdır".

***Ayşən Vəli***

ARAŞDIRMA

# Gombul - HEKAYƏ

*Bu hekayədə uşaqlığımın bir acı xatirəsini qələmə aldım. Bəlkə də bir çoxlarınızın gözləri dolacaq, qəhər sizi boğacaq, amma sizi inandırıram ki, buna dəyər. Xatirələrdən qurtulmaq çətindir, biz etdik, siz etməyin deyə yazdım, əziz balalar.Xatirələrin daş yaddaşı- unudulmaz insanlıq dərsi haqda real həyat hekayəsi 80-ci illərin ortaları. Qayğısız uşaqlıq illəri. Hər gün məktəbdən çıxandan sonra gəlib qırmızı qalstukumuzu və pencəyimizi çıxarıb yol kənarındakı ağacdan asır, çantalarımızı üst-üstə yığıb qapı düzəldərək küçədə futbol oynayardıq.*



Məktəbimizin stadionu bizdən böyüklər tərəfindən zəbt edildiyi üçün küçədə oynamağa məcbur idik. Hər dəfə maşın gələndə kənara çəklilib yenidən qızğın mübarizəyə başlayardıq.Günlərin bir günü yenə futbol oynamağa hazırlaşdığımız vaxt kənarda kök bir yaşıdımız peyda oldu. Bölünmə zamanı bizə yaxınlaşıb ürkək səslə "olarmı, mən də oynayım" deyə soruşdu. Uşaqlar buna baxıb "sən gombul şeysən, səndən futbol oynayan çıxmaz" deyərək kənara itələdilər. Pərt olmuş uşaq kənara çəkildi."Niyə öz küçənizin uşaqları ilə oynamırsan" deyə soruşdum, cavab verdi ki, bizim küçədə futbol oynamırlar. Halbuki, mən bilirdim ki, Tovuz şəhərinin bütün küçələrində hər gün futbol oynanır, başa düşdüm ki, onu gombul olduğuna görə öz küçəsinin uşaqları komandaya götürmürlər.Bölünmə zamanı məlum oldu ki, 9 nəfərik, komandalar 4-ə 5 nisbətində olacaq. Məcbur qalıb bu oğlanı da əlavə etdik, amma qapıçı dayanmaq şərtilə.Qızğın oyun başladı. Gombulun cəld olmaması ucbatından bir neçə ardıcıl qol buraxdıq və oyunu uduzduq. Komanda yoldaşlarım yığılıb onu döyməyə başladılar. Əlləri ilə üzünü qoruyaraq yazıq görkəmlə, yalvarışlı baxışlarla bizə baxan oğlan yediyi aramsız zərbələrə rəğmən səsini çıxarmırdı, səssiz ağlayırdı. Araya girib onu uşaqların əlindən almağa çalışdım. Tutaşma zamanı sol əlimin çeçələ barmağı arada qalıb burxuldu və yerindən çıxdı. Ağrıdan özümü güclə saxlayaraq evə tərəf üz tutdum. Yeni "dostumuz" isə axsaya-axsaya qonşu küçəyə tərəf getdi.Evdə qorxumdan barmağımın çıxdığını deyə bilmədim. Hadisələri qabaqlayaraq deyim ki, barmağım yerinə düz oturmadığından orta bükükdən bir az əyritəhər qaldı və hələ də elədir.Sabahkı gün oyun vaxtı gombul oğlan yenə bizim küçəyə gəldi. Bu dəfə onu komandaya yaxın buraxmadıq. Axıra qədər yorulmadan kənara çıxan topları bizə daşımaqla məşğul oldu. Bizə elə gəlirdi ki, o, varlı ailənin müxtəxor uşağıdır, çox yemək-



dən, tənbəllikdən belə gombuldur və bütün günü tıxmaqdan başqa əlindən heç bir iş gəlmir. Bu təssürat səbəbi ilə uşaqlar boş vaxt tapan kimi birləşib onu döyürdülər. Heç vaxt "döyməyin" demirdi. Uşaqlar onu döyməklə yanaşı atasına və anasına ağır söyüşlər söyürdülər. O isə yalnız bir söz deyirdi- söyməyin. (Niyə belə dediyini bir neçə gün sonra başa düşdüm.)Əvvəllər mən bu kollektiv divanda iştirak etmirdim, sonra yoldaşlarım məni lağa qoymağa başladılar ki, sən qorxaqsan, ona görə onu vurmursan. Belə döyüşlərin birində bu qınaqlara dözməyib qorxaq adını üzərimdən götürmək üçün mən də ona bir neçə şillə-təpik vurdum. Oğlan özünü müdafiə etmir, təəccüblə mənə baxırdı. Mənə elə gəldi ki, məni güclü saymır deyə məndən qorxmur. Bu məni qəzəbləndirdi və onun üstünə cumdum. Özünü qorumaq üçün məni itələyib qaçmaq istədi. Arxası üstə yerə yıxıldım və uşaqlar gülməyə başladı. Bundan daha da əsəbiləşdiyimdən durub onu yaxşıca əzişdirmək istədim, lakin məsafəyə baxıb başa düşdüm ki, çatıb tuta bilməyəcəm.Yerdən bir daş götürüb var gücümlə ona tərəf atdım. Deyim ki, əl daşı atmaq üzrə o vaxt mən az qala qeyri-rəsmi dünya çempionu idim. İstədiyim hədəfi uzaq məsafədən dəqiqliklə vura bilirdim. Hətta göydə uşan quşu belə uzaqdan əl daşı ilə vurub saldığım hallar olmuşdu.Bu dəfə atışım daha dəqiq alındı, təxminən 30-40 metr məsafədən atdığım daş parçası düz başına dəydi. Gombulun başı yarıldı, əlləri ilə başını tutub yerə yıxıldı, qan üst-başına axmağa başladı. Qorxumuzdan hərəmiz bir yerə qaçıb dağılışdıq.Axşama qədər evə gəlməyə ürək eləmədim. Axşam evə gələndə anam məni yaxşıca çırpdı. Soruşdu ki, bəs səhərdən səni axtarırıq, xalqın uşağının başını niyə yarmısan, indi xəstəxanadadı, anası bura gəlmişdi, üzümüzə demədiyi söz qalmadı, bizi milisə çağırıblar.Bir az keçmiş atam gəldi, əhvalatı artıq kimsə ona danışıbmış, heç nə demədən başını bulayaraq mənə elə sarsıdıcı bir nəzər saldı ki, anamın vurduğu şillə-şapalaqlardan betər oldu, ölsəm bundan yaxşı idi



Öz aralarında nəsə danışdılar, sonra məni götürdülər, getdik qonşu küçəyə, gombulun evinə. Kiçik bir həyət evi, daxma kimi hər yerdən kasıbçılıq və imkansızlıq yağır. Bizi anası qarşıladı. Evdə ağlamaqdan gözləri qızarmış, 7-8 yaşlarında kiçik bir qız uşağı da var idi, o oğlanın bacısı olduğunu başa düşdüm. Anası mənə heç nə demədi, sadəcə əlimdən tutub içəri otağa keçirdi. Oğlan başı tamam sarıqlı halda çarpayıda uzanmışdı. Başının arxa tərəfindən iri qan ləkəsi sarığın üstündən görünürdü. Məni görəndə gözləri doldu. Nədənsə üzü də bir az şişmişdi. Sakitcə mənə baxırdı. Bilmirdim nə deyim, elə ağzımı açıb "bağışla" demək istəyirdim ki, dilləndi- məni niyə vurdun qaqa, mən sənə neyləmişdim?

Hələ bu qədər güclü sarsıldığım olmamışdı. Qəhər məni boğurdu. O dərəcədə ki, "bağışla" deməyə belə gücüm çatmadı, gözlərim dolmuş, yaş yanaqlarımdan aşağı süzülürdü. Bir yandan "əsərimin" təsirli mənzərəsi, bir yandan da onun və ailəsinin haqqındakı təsəvvürümün alt-üst olması sardıcıdı təsir göstərdi. Mən və yoldaşlarım elə bilirdik ki, o imkanlı bir ailənin müxtəxor və tənbəl, bacarıqsız və bivec uşağıdır. Elə onu tez-tez döyməyimizin əsas səbəbi də bu idi

Yaşlı gözləri ilə mənə baxdığı vaxt, onu daşla vurduğum səhnə təkrar-təkrar gözümün qarşısından keçirdi. Kaş ki, zamanı geri qaytarmaq olaydı, deyə düşünürdüm. Saçıma bir əl toxunduğunu hiss edəndə özümə gəldim. Anası idi. "Bala mən bu uşağı nə zülümlə böyüdürəm, xəstə uşaqdı, niyə onu bu hala salmısınız, sizə nəsə edibsə de, cəzasını verim"- deyə gözlərini üzümə zillədi. Susmaqdan başqa yol tapmadım Atamla anamın xəcalətlərindən necə yerə girdiklərini görür və hiss edirdim ki, bu da sarsılma dərəcəsini ən yüksək həddə çatdırırdı

Ana bizə çay süzüb qarşısımıza qoydu və böyüklər söhbətə başladı. Məlum oldu ki, gombulun atası zavodda fəhlə işləyib, bir neçə il əvvəl infarktdan rəhmətə gedib. (Birdən başa düşdüm ki, biz onu döyəndə o aldığı zərbələrə görə yox, vəfat etmiş atasına söydüyümüz üçün ağlayırmış və məhz buna görə bizə "döyməyin" yox, "söyməyin" deyə yalvarırmış. Yeganə təsəllim o idi ki, mən onu söyməmişdim. Köz yarası sağalar, söz yarası sağalmaz)

Ana idarədə xidmətçi işləyir. Bu evdə kirayə qalırlar. (Biz də kirayədə qalırdıq, lakin bizim qaldığımız ev bu evə nisbətən xeyli yaxşı şəraitdə idi- bununla belə o vaxt kirayədə yaşamağın nə demək olduğunu anlayacaq yaşda deyildim). Ana aldığı maaşın bir hissəsini bu evə kirayə haqqı verir. Yerdə qalan pulla həm uşağı müalicə etdirir, həm də yemək-içməklərini güclə çatdırır. Uşağın köklüyü də elə xəstəlikdən imiş, biz düşündüyümüz kimi bütün günü yağ-bal tıxamaqdan deyilmiş. Anasının dediyinə görə, çox az yeyirmiş, ona güclə yemək yedirdirmiş. Heyrətlə bu qadına baxırdım. Qadının üzündə erkən qocalmış, həyatın bütün acılarını görmüş fədakar bir ananın möhtəşəm portreti cızılmışdı. Bu portret peşmançılıqdan və qəhərdən boğulmağımı maksimuma çatdırmışdı Boğazımda qəhərlə yanaşı, utandığımdan deyə bilmədiyim "bağışla" sözü də tıxanıb qalmışdı...

* * *

O gecə səhərədək yata bilmədim, balışım tamam su olmuşdu. Valideynlərimin vurduğu şillə-şapalaq, "haram olsun sənə" sözləri və 1 aylıq küçəyə çıxmama cəzası çəkdiyim vicdan əzabının yanında çox yüngül cəza idi.

O gecə neçə il yaşlandım sanki. O gecə uşaqlığımın son gecəsi idi

* * *

O uşağı bir daha görmədim. Sonra eşitdim ki, harasa başqa yerə köçüblər. Bəlkə də bizim əlimizdən

* * *

5 il keçdi. 1991-ci ildə orta məktəbi bitirdik. Qaranlıq 90-ci illər həyatımızın ən mənalı çağına bomba kimi düşdü. Biz həyata atılmağa hazırlaşanda ölkə dağıldı, müharibə başladı, aclıq, yoxsulluq, işsizlik, anarxiya baş alıb getdi

Tələbəliyim həm oxumaq, həm işləməklə keçirdi. 90-ların əvvəlində hiperinflyasiya baş alıb gedirdi, müəllim olan atamın əməkhaqqı ilə dolanmaq olmazdı. Bakıda həm oxuyub, həm işləyir, həm özümü saxlamağa, həm də ailəyə kömək etməyə çalışırdım.

Ardı Səh. 13

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "Uşaq və gənclərin fiziki və mənəvi inkişafı" istiqaməti çərçivəsində hazırlanıb.***

# Gombul - HEKAYƏ



Əvvəli-Səh-12

Lakin iş demək olar ki, yox idi. Hətta fəhləlik işi belə tapılmırdı. Bir tələbə yoldaşımla qaldığımız kirayə evin pulunu verə bilmədiyimizdən çıxmağa məcbur olduq.

* * *

92-ci ilin qızmar yay günlərinin birində Suraxanının küçələrinə düşüb ucuz kirayə ev axtarırdım. Hər küçədə adamlardan bəlkə burda kirayəyə bir otaq verən ola deyə soruşurdum. Bir yerdə soruşdular ki, haralısan, cavab verdim ki, Tovuzdanam, burada tələbəyəm. Dedilər elə qabaqda bir tovuzlu qadın var, həyətdə ayrıca bir balaca otağı var, oranı kirayə verir, hər adamı götürmür, amma sən yerlisi olduğun üçün bəlkə sənə verdi otağı.Məni orada nə və kim gözlədiyini ağlıma belə gətirmədən evə tərəf getdim. Darvazanı döyüb həyətə girəndə bir kök cavan oğlan yaxınlaşdı. Diqqətlə mənə baxıb, "qardaş sənsənmi, az qala tanımayacaqdım, nə yaxşı gəlmisən, kimi axtarırsan" deyə soruşdu. Onu tanımadım. Mat-mat baxdığımı görüb filankəsəm dedi

Qəfildən beynimdən lent kimi, əyilib yerdən götürdüyüm daş, qolaylanıb atmağım və o daşın gombulun başını necə qana bələməsi səhnəsi keçdi, dalınca da çarpayıda uzanıb yaşlı gözlərlə mənə baxıb soruşduğu "məni niyə vurdun, sənə neyləmişdim ki" sualı

"Heç dəyişməmisən, görən kimi tanıdım" dedi. Mənim tutulduğumu görüb qolumdan tutub evə tərəf çəkdi. Xalasını səsləyib, məni oturtdu stol arxasında, hal-əhval tutdu. Uşaqlıq xatirələrimizdən danışdı. Sanki başqa xatirələrimiz varmış kimi bir neçə əhvalat uydurdu, amma o məsələyə heç toxunmadı, sanki heç olmamışdı.

Oradan köçdükdən 3 il sonra anası da rəhmətə gedib, uşaqları bu xalası götürüb saxlayıb. Xalasının da əri rəhmətə gedib,1 oğlu



var. Bacısı hələ məktəbi bitirməyib, özü isə burada xalaoğlusu ilə birlikdə tikintidə fəhlə işləyir. Uşaqlıqda tənbəl, müxtəxor bildiyim adamın əllərindəki qabarı gördükdə, öz əllərimi gizlətməyə yer axtarırdım

Kirayə axtardığımı biləndə dedi ki, həyətdəki o ayrıca otağı kirayə vermək istəyirdik, amma səndən pul almayacağıq. Razılaşmadığımı görəndə çox aşağı bir qiymət deyib məni razı saldı. Dedi ki, sabah tikintidə prorabla danışacaq, bəlkə birtəhər fəhlə işi düzəldə.Çayın arxasınca məni buraxmayıb yeməyə qonaq etdilər. Yemək boğazımdan zorla keçirdi. "Tənbəl gombul"un qabarlı əlləri ilə qazanılmış çörək sanki daşa dönmüşdü- istisini hələ də əlimdə hiss etdiyim, 5 il qabaq atdığım daşa

O gecəni də səhərədək yata bilmədim. Uşaqlıqdakı o gecədən daha ağır sarsılmışdım

Sabahı günü köçdüm onlara. Axşam gəlib dedi ki, iş məsələsi çox çətindi, gündə neçə nəfər gəlir iş üçün, amma yer yoxdu, yalnız bir iş var, o da çox ağırdı, sən işləyə bilməzsən. Deməli, tikintinin kranı xarab olub, 4-cü mərtəbə tikilir, sement palçığını vedrələrlə dayanmadan 4-cü mərtəbəyə qaldırmaq lazımdı.Yay tətilini işləyib pul yığmalı, həm evə kömək etməli, həm tələbəlik xərclərimi çıxarmalı idim. Sevincək razılaşdım.Sabahısı günü Suraxanı stansiyasından elektriçkaya minib birlikdə tikintiyə getdik. Prorab mənə baxıb dedi ki, bu bacarmayacaq. Dedim bacarmasam çıxaram, nə problem var ki?! Nə isə, iş başladı. Aşağıda 2 nəfər palçıq qarışdırır, mən də 2 vedrə palçığı 4-cü mərtəbəyə qaldırıram, orada ustalar vedrələri 2 saniyəyə betona əndərib deyirlər ki, cəld yenə gətir. Məndən başqa palçıq qaldıran daha bir nəfər də var, amma o məndən canlı-cəsədlidir.7-8 reysdən sonra gördüm artıq gücüm qalmayıb. Amma bu işi də əldən versəm vəziyyətim çox pis olacaqdı.Canımı diimə tutub işləyirdim. Axşam evə gələndə meyit kimi necə düşürdümsə yerə, qalxıb bir şey yeməyə gücüm olmurdu. Dostum başqa sahədə işləsə də, imkan düşən kimi gəlib mənim əvəzimə bir iki reys palçıq qaldırır və məni dincəlməyə məcbur edirdi.4 gün sonra Sumqayıtdan olan "naparnikim" dözməyib haqq-hesabını aldı və işdən getdi. Yeni adamı sabaha danışmışdılar, həmin gün tək işlədim. Gündə azı 50 dəfə hər biri təxminən 20 kq olan 2 vedrə palçığı 4-cü mərtəbəyə necə qaldırdığımı indi heç cür başa düşə bilmirəm.14 gün dözə bildim, axırıncı gün evə son gücümün son addımını ataraq çata bildim, necə meyit kimi düşdümsə yerimə, səhərədək qalxa bilmədim

Dostum yarım aylıq maaşımı alıb gətirdi. Sonra maraqlanıb mənə "pekarnı"da iş tapdı. Bu, nisbətən yüngül iş idi, amma yayın qızmarında cəhənnəm kimi sobanın ağzında dayanıb uzun taxta lövhə ilə xəmirləri içəri düzmək, çörəkləri yandırmadan tam vaxtında çəkmək lazım idi. Qan-tərə batırdım, axşama indiki pulla təxminən 5 manat və 2 çörək verirdilər.Dostum və xalası özlərinə bişirdikləri hər yeməkdən mənə də pay gətirirdilər. Mən isə aldığım 2 çörəkdən 1-ni onlara verirdim. Bəzən təzə bir şalvar, ya da köynək gətirirdi ki, xalam mənə alıb gətirib, amma əynimə dar gəldi, heyifdir, götür, sən geyin. Buna bax ey, elə bil uşaq başı aldadır Götürmək istəmirdim, amma zorla verib çıxırdı. Bütün bunların xərci mənim verdiyim aylıq kirayə pulundan çox edirdi. Yəni, əslində, onlara yük olduğumu anlamışdım.Günlərin bir günü, daha doğrusu, gecələrin bir gecəsi paltarımı, əşyalarımı yığıb səssizcə oradan getdim. Sabunçuda başqa kirayə tapmışdım, bundan bir az baha, amma daha pis şəraitli bir otaq. Eybi yoxdu, pis şəraitli kirayə evlərə artıq öyrəşmişəm, anadan olandan kirayələrdə böyüdüm, 13 yaşım olanda ev aldıq, lakin mən o evdə cəmi 3 il yaşaya bildim, 16 yaşımda- 1991-ci ildə orta məktəbi qurtarıb Bakıya oxumağa gələndən sonra kirayə həyatım davam elədi. Həyatımın düz 40 ili kirayələrdə keçdi. Bu 40 ildə 20-dən artıq kirayə ev dəyişmişəm, onların arasında mənə ən doğma olanı da o gombul dostumun verdiyi o kiçik otaqdır.O evdən, daha dorğrusu, otaqdan çıxanda, hələ yarısı keçməmiş 1 ayın tam kirayə pulunu və bir qısa məktub yazıb stolun üstünə qoymuş, mənə etdikləri yaxşılıqlara görə minnətdarlıq etmişdim. Vaxtilə onu vurduğum daşla tam eyni ölçüdə bir daşı da məktubun üstünə qoymuşdum

Oradan ayrılmağımdan 7 il sonra - 99-cu ildə işlədiyim qəzetdən Suraxanıda qaz problemi ilə bağlı bir yazı hazırlamaq üçün göndərildiyim zaman, qərar verdim ki, gedib görüşəcəm, hal-əhval tutacam. Evi tapdım, darvazası dəyişmişdi, evdə başqaları yaşayırdı, maraqlandım, qonşular dedilər ki, xalası 3 il qabaq rəhmətə gedib, dostum isə bacısını da götürüb, xalaoğlusu isə birlikdə Rusiyaya köçüblər, o vaxtdan bir xəbər yoxdur. Gözlərim həyətdə o daşı axtardı, bəlkə haradasa bir küncdə atılıb qalmış ola, lakin gözümə dəymədi. Bəlkə də gombul o daşı da bədənindən böyük olan ürəyində aparmışdı qürbət ölkəyə.

* * *

Tovuzda olarkən yolum düşəndə belə o küçədən keçə bilmirəm. O hadisənin acı xatirəsi ürəyimi ağrıdır deyə

Yalnız 1 dəfə o yerə getdim, həmin nötqədə çöməlib oturdum və uzaq 80-ci illər- şirin uşaqlığımızın acı xatirəsini xatırladım. Balaca bir daş idi, vallah çox balaca idi amma o balaca daş necə böyük bir həyat dərsi vermişdi mənə. Bu daş məndən ağır idi. Gombul dostum da məndən ağır idi, amma təkcə fiziki çəkidə yox, sözün bütün mənalarında. Onun elə tək bir ürəyi məndən ağır olar

Keçən 30 ildə dostumla bir daha heç vaxt, heç yerdə qarşılaşmadıq. Bəlkə həyat bizi nə vaxtsa bir də görüşdürdü. 30 il qabaq o məsələdən söz salmağa imkan vermədi deyə uşaqlıqda deyə bilmədiyim "bağışla" sözünü yenə deyə bilməmişdim, bu dəfə mütləq deyəcəm. O, onsuz da məni bağışlayıb, bu sözü sadəcə vicdanım məni bağışlasın deyə ona deyəcəm. Bu vicdan əzabı ilə bir ömür yaşamaq çətindir Çox çətindir

***Elçin Bayramlı***

***PS: Bu yazı real həyat hekayəsidir. Bunu siz oxuyasınız deyə yox, uşaqlarınız oxusun deyə yazdım. Şahidləri az deyil. Onlardan kimsə bunu oxusa və adını çəkmədiyim, mənə bir ömür unuda bilməyəcəyim həyat dərsi vermiş o dostumu görsə, yerini və ya əlaqə vasitələrini mənə bildirməsini xahiş edirəm.***

# "Heç bir cinayət cəzasız qalmayacaq"

**"Laçın şəhərinin Zabux və Sus kəndininin avqustun 25-ə kimi boşaldılması gündəmdədir". Bunu SİA-ya açıqlamasında politoloq Elşad Həsənov bildirib. Politoloq bildirib ki, Ermənistan mətbuatı artıq bəyan edib ki, həmin kəndlər boşaldılır və kəndlərin yandırılmaması haqqında ermənilərə guya xəbərdarlıq edilib: "Ancaq görünən odur ki, artıq ermənilər kənddən çıxan zaman meşələri və evləri yandırırlar.**



Bu erməni millətinin xəbis xüsusiyyətidir. Xəbislik artıq ermənlərin xarakteridir. Bu torpaqlar onların deyil, buna görə də yandırıb çıxırlar. Qarabağın ekologiyasına böyük ziyan vururlar. Birinci Qarabağ müharibəsi dövründə yurdlarını tərk edən əhalimizin heç biri öz evini yandırmadı. Bizim əhalimiz yurdlarını, evlərini qoyub gedəndə belə etmədi. Çünki biz bilirdik ki, gec və tez öz doğma torpaqlarımıza və evlərimizə qayıdacağıq. Bu gün ermənilərin evləri yandırmaq səbəbi odur ki, onlar heç vaxt bu torpaqlara bir daha qayıtmayacaqlar. Azərbaycan torpaqlarında müvəqqəti yaşadıqlarını bilirdilər. Kütləvi şəkildə meşələri yandırmaq və ekologiyaya zərər vurmaq BMT tərəfindən araşdırılmalıdır. Bizim aidiyyatı orqanlar müəyyən sənədlər toplayıb, video və foto materialları hazırlayıb, əraziyə dəymiş zərəri hesablayıb BMT və digər beynəlxalq təşkilatlara təqdim etməlidirlər. Eyni zamanda Ermənistanın Azərbaycana vurduğu ekoloji və mədəni zərərlərlə bağlı materiallarda hazırlandı. Meşələrin yandırılması təkcə Laçına yox, bütövlükdə bütün dünya ekologiyasına vurulan böyük zərbədir. Biz bu hadisələrə Kəlbəcərdə də şahidi olduq. Etdikləri əməllər ermənilərin vandal zehinlərindən xəbər verir. Hazırkı dövrdə ermənilər ona görə təlaşa düşüblər ki, onların havadarı olan Rusiya ermənilərə dəstəkdən əl çəkib. Artıq bildiyiniz kimi İrəvanda "Sürməli" ticarət mərkəzində yanğın nəticəsində16 nəfər yanaraq öldü, 62 nəfər xəsarət aldı, iki nəfər də itkin düşdü. İrəvan mətbuatı olayları belə qiymətləndirir ki, Rusiyanın bu hadisədə əli var. Düşünürlər ki, Rusiya terror aktı terörədib.Ermənistan ictimaiyyəti artıq Rusiya ilə soyuq mübarizəyə başlayıblar. Hətta məsələ səfirlik səviyyəsinə qədər yüksəldi ki, Rusiyanın Ermənistandakı səfirliyi Ermənistana nota verdi. Ermənistan Rusiyanı günahlandırır və münasibətlərə xələl gətirirlər. Ermənilər etdikləri bütün cinayətlərə cavabdeh olmalıdır. Heç bir cinayət cəzasız qalmayacaq. Düşünürəm ki, qalan ermənilər də ərazilərimizdən çıxıb gedəcək, çünki onların bizlə yaşamaq kimi istəkləri yoxdur. Qarabağda törətdikləri yanğınlar bizə olan nifrətlərini göstərir".

***Qönçə Quliyeva***

# Lvov görüşü Ukrayna və Rusiya müharibəsi üçün nə vəd edir?

*"Lvovda keçirilən görüş yalnız Türkiyənin böyük zəfəri deyil, Ərdoğanın dünya miqyaslı bir siyasətçiyə çevirilməsinin sübutudur". Bu sözləri SİA-ya açıqlamasında politoloq Cümşüd Nuriyev deyib.*



Cümşüd Nuriyevin sözlərinə görə, Lvov da keçirilən üçtərəfli görüşdə masaya bir neçə məsələ qoyulub: " Birinci, ərzaq təhlükəsizliyi ilə bağlı Ukraynadan ərzaq məhsullarının və taxılın çıxarılmasının davamlı olması ilə bağlıdır. İkinci məsələ Rusiya və Ukrayna müharibəsinin dayanması şərtləridir. Düşünülür ki, Soçidə keçilən görüşdə Ərdoğan və Putin müharibə ilə bağlı məsələləri müzakirə edib. Rusiyanın müharibəni dayandırmaq şərtləri yəqin ki, Zelenskiyə çatdırılıb. BMT dünyanın ən böyük təşkilatı olmasına baxmayaraq, ABŞ-ın nəzarəti altındadır. Hər halda, Ərdoğan Putinin bu sahədə olan fikirlərini Quterreş vasitəsilə ABŞ-a çatdıracaq. Digər məsələ Avropaya enerji təchizatı ilə bağlı olan məsələdir. Avropada Rusiyadan asılılığı doldurmaq çox çətin prosesdir. Ukrayna hansı şərtlərlə sülhü və ya atəşkəsi qəbul edər?- bu tip suallar cavablandırılacaq. Razılaşma olubsa, bu, öz nəticəsini verəcək. Çünki müharibə 6 aydır davam edir və bu, dünyanın siyasi düzənində ciddi problem yaradıb. Bu proseslərin sonu Üçüncü dünya müharibəsinə gətirib çıxara bilər. Hesablamalara görə belə bir dünya müharibəsi olduqda kiçik miqyaslı olduqda təxminən 1 milyon, böyük miqyaslı olsa 5-6 milyon əhalinin məhvi deməkdir".

***Qönçə***

# "Müxalifət heç vaxt öz məkrli istəyinə çatmayacaq"

**"Söyüş kampaniyasında iştirak edən adamlar ümumiyyətlə, müasir sivil siyasi mübarizə metodlarından tam uzaq insanlardır". Bunu Azadlıq Hərəkatçılar Birliyinin sədri Təhmasib Novruzov "Səs" qəzetinə açıqlamasında bildirib. Onun sözlərinə görə, xaricdəki həmin söyüş qrupunun üzvlərinin sosial şəbəkələrdə qoyduqları çirkin kampaniyanı hər kəs pisləyir: "Xarici qüvvələr də bu maliyyənin qarşılığında onlardan Azərbaycan dövlətinin uğurlarına kölgə salmaq üçün bir vasitə kimi istifadə edir.**

MÜSAVAT

Ancaq nə xarici qüvvələrin, nə də müxalifətin nə istəməsindən və nə etməsindən asılı olmayaraq, onlar inkişaf etmiş güclü Azərbaycan dövlətinin uğurlarına heç vaxt kölgə sala bilməyəcəklər. Çünki bizim yolumuz dönməz və davamlıdır. Ümumiyyətlə, dağıdıcı müxalifət partiyaları 1990-cı illərdən necə yaranıbsa, indinin özündə də həmin vəziyyətdə qalmaqdadır".T.Novruzov onu da bildirdi ki, xaricdə müəyyən qüvvələr var ki, Azərbaycanda ictimai siyasi vəziyyətin gərginləşməsində maraqlıdırlar: "Həmin xarici qüvvələrin istəkləri ölkəmizin əldə etdiyi uğurlara kölgə salmaqdan ibarətdir. Bunun üçün də daxildəki bəzi qüvvələrdən bir vasitə kimi istifadə edirlər. Müxalifət düşərgəsini təmsil edən şəxslərin özləri də çox gözəl bilirlər ki, Azərbaycan vətəndaşları müxalifətin dediklərinə heç vaxtı inanmır. Azərbaycan bu gün nəinki regionun güclü qüdrətli dövlətinə çevrilib, Azərbaycan artıq dünyada öz hörmətini qazanmış nüfuzla bir dövlətdir. Ona görə də, bunlar çalışırlar ki, bizim inkişafımızı əngəlləsinlər. Amma onların nə etməsindən və deməsindən asılı olmayaraq, onlar heç vaxt öz məkrli istəklərinə çatmayacaq".

***Gülyana***

# Türkiyə sülhü təmin edə biləcəkmi?

***"Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğanla Ukrayna Prezidenti Zelenski arasında keçirilmiş görüş bütün dünyanın kütləvi informasiya vasitələrinin diqqət mərkəzində olub. Türkiyə Prezidenti bildirib ki, Türkiyə Ukrayna və Rusiya arasında vasitəçi olmağa hazırdır. Düşünürəm ki, Türkiyə artıq Rusiya-Ukrayna müharibəsi fonunda vasitəçilik imkanlarını kifayət qədər geniş şəkildə təqdim edib". Bu fikirləri SİA-ya açıqlamasında politoloq İlyas Hüseynov bildirib.***



Politoloqun sözlərinə görə, bu cür vasitəçilik təşəbbüsü fevral ayında müharibə başlayanda Antalya diplomatik forumunda Ukrayna Rusiya və Türkiyə dövlətlərinin Xarici İşlər nazirləri arasında görüş keçirildi: "Daha sonra İstanbulda Tayyib Ərdoğanla Rusiya-Ukrayna dövlətlərinin nümayəndə heyətləri arasında görüş oldu. Ukrayna taxılının dünya bazarına çıxarılması istiqamətində Türkiyə bir sıra addımlar atdı. Burada Birləşmiş Millətlər Təşkilatında iştirak etməsi təkidlə tələb olundu. Nəticədə Rusiya,Ukrayna, Türkiyə, BMT arasında imzalanmış razılığa əsasən bu gün də Qara dəniz vasitəsi ilə Ukrayna taxılı müxtəlif gəmilərlə daşınır. Əsas məsələ müharibənin sonlandırılması və atəşkəsin əldə olunmasıdır. Bu istiqamətdə də Türkiyə öz vasitəçilik imkanlarını geniş çatdırır. ~~~ BMT ~~~

Türkiyə öz vasitəçilik imkanlarını geniş şəkildə təqdim etməyə hazırdır. Nəticədə Türkiyə sülh təşəbbüsü ilə çıxış edən mühüm geosiyasi tərəf kimi fərqlənmək həcmindədir. Türkiyə həm də Qara dəniz hövzəsində Rusiya və Ukrayna ilə həmsərhəd dövlətdir. Məhz bu baxımdan qonşuluq arasında olan müharibənin sonlandırılması həm də Türkiyənin təbii haqqıdır. Həmçinin Türkiyə böyük bir coğrafiyada təhlükəsizliyin təmin olunması işində yaxından iştirak edir. Burada yaxın Şərqdən tutmuş Qafqazlara qədər bir ərazini əhatə edən Türkiyənin təhlükəsizlik arxitekturasına töhfələri mövcuddur, eyni zamanda Ukrayna tərəfinin ilk günlərdən əsas vurğuladığı məsələ təhlükəsizlik zəmanətlərini verə bilən dövlətlərin mövcudluğuna eyhamdır".

***Banuçiçək Hüseynli***

***Bəşəriyyətdə ən dəyərli sayılan insandır, insan həyatıdır və bu baxımdan da insanların təhlükəsiz, əmin-amanlıq şəraitində yaşaması hər zaman prioritet məsələ hesab olunub. Hal-hazırda da bu məsələ öz aktuallığını qoruyur. Ona görə ki, müxtəlif millət və dinlərə mənsub insanların qarşılıqlı anlaşma və qarşılıqlı hörmət şəraitində yaşaması təhlükəsizlik mühitinin yaranması üçün əsaslı zəmin yaradır. Belə bir təhlükəsizlik mühitinin yaranması, əlbəttə ki, fərqli mədəniyyətlərin dialoqundan asılıdır.***

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

***6.3.15. "Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi" Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin dəstəyi ilə hazırlanmışdır.***

# Dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi öz aktuallığını qoruyur



Azərbaycan müxtəlif etnosların və millətlərin, fərqli dinlərə sitayiş edən insanların tarixən dostluq və qardaşlıq şəraitində yaşadığı tolerant ölkə olub. Azərbaycanda müxtəlif inanclara, dini etiqadlara, dilə, adət-ənənələrə mənsub etnik qruplar belə hər zaman sülh şəraitində yaşayıblar. Ölkəmizin ərazidində məskunlaşan müxtəlif milli mənsubiyyətə malik insanlar ayrıseçkiliyə, təzyiqlərə məruz qalmayıblar, əksinə, onlara heç bir fərq qoyulmayıb. Müxtəlif milli mənsubiyyətə malik insanların istənilən sahədə çalışdıqları, onlara hörmətlə yanaşıldığı barədə hər kəs bilir və bu da deyilənləri təsdiq edir. Təsdiq edir ki, Azərbaycan tarixən, yəni bu zamana qədər də tolerant ölkə olub və müxtəlif etnik qruplara humanistcəsinə yanaşılıb, bu gün də eyni yanaşma müşahidə edilir.

İstər coğrafi mövqeyi, istərsə də əhalisinin etnik tərkibi Azərbaycanda müxtəlif dinlərin mövcudluğu üçün şərait yaradıb. Təsadüfi deyil ki, tarix boyu ölkəmizin ərazisində bütpərəstlik, zərdüştilik, yəhudilik, xristianlıq, islam və bir çox başqa dini inanclar yayılıb. Bu fərqli dini inanclara sahib olan insanlar arasında isə heç zaman hansısa qarşıdurma, yaxud anlaşılmazlıq belə olmayıb. Əksinə, hər kəsin dini inancına hörmətlə yanaşılıb. Bir sözlə, Azərbaycanda tarixən heç zaman istər milli, istər dini, istərsə də hər hansı zəmində heç bir diskriminasiya hadisəsi kimi arzuolunmaz hal olmayıb.

Xatırladaq ki, hal-hazırda dünyanın 21 ölkəsində 12 milyona qədər insan məhz etnik təmizləmə siyasəti nəticəsində qaçqın və məcburi köçkün şəraitində yaşayır.
Dünyada baş verən qarşıdurmaların bir hissəsinin də elə etnik-dini anlaşılmazlıqlara görə olduğu bəllidir. Bəzən dünyanın bir çox ölkələrində, hətta eyni dinə mənsub müxtəlif təriqətlər arasında belə mübarizələr olduğu barədə də eşidirik. Bir çox hallarda bu mübarizələr qanlı toqquşmalarla da nəticələnə bilir. Deməli, insanların təhlükəsizliyi, dinc, əmin-amanlıq şəraitində yaşaması mədəniyyətlərarası, dinlər və millətlərarası münasibətlərdən asılıdır. Bu baxımdan xalqlar, millətlər, müxtəlif dini etiqad və inanclara sahib insanlar bir-birinə, bir-birinin etiqadına, inancına hörmətlə yanaşmalı, birgəyaşayışın məsuliyyətini dərk etməlidir ki, bütün dünyada təhlükəsizlik, əmin-amanlıq təmin olunsun. İndiyə qədər heç bir dini, milli qarşıdurmaların olmadığı Azərbaycan, məhz bu səbəbdən də dünya dövlətləri üçün nümunə hesab olunur. Əvvəla ona görə ki, ölkəmizdə bütün dinlərə, istənilən dini inanca sahib olanlara, istənilən adət-ənənə sahiblərinə hörmətlə yanaşılır, kimsə öz milli mənsubiyyətinə, yaxud inancına görə digərlərindən fərqləndirilmir. Digər tərəfdən də, Azərbaycan Respublikası Konstitusiyasının vicdan azadlığı ilə bağlı müddəalarının həyata keçirilməsi üçün yaradılan şərait, yəni qeyd olunanların müvafiq qanunvericilik çərçivəsində tənzimlənməsi mövcuddur. Bir sözlə, Azərbaycan cəmiyyətinin nümunəvi normalarına çevrilən etnik dini tolerantlıq ölkəmizin dünya birliyinə hərtərəfli inteqrasiya siyasətini həyata keçirməsinə imkan yaradır və hazırda ölkəmizdə bütün dini icmaların bərabər hüquqlara malik olması məhz bu siyasət sayəsində reallaşıb.

Doğrudur, qeyd etdiyimiz kimi, tarixən Azərbaycanda tolerantlıq olub, insanlara inanclarına, etiqadlarına, adət-ənənələrinə, milli mənsubiyyətlərinə görə fərq qoyulmayıb. Ölkəmizdə insanlara kimliyindən, dini düşüncə tərzindən asılı olmayaraq eyni şəkildə yanaşılıb, amma onu da etiraf etmək lazımdır ki, Ulu Öndər Heydər Əliyev hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanda dinlər və etnik qruplar arasında münasibətlər daha da möhkəmlənib. Etiraf edilməlidir ki, milli-dini dəyərlərimizin qorunmasında, islam dininə ehtiram göstərilməsində, xalqımızın dini əqidəsinin möhkəmləndirilməsində Ümummilli Lider Heydər Əliyevin böyük rolu olub. Artıq bütün bu sadalananlar qanunvericiliklə, qanunla qorunur və Ulu Öndərin siyasi kursunun davamçısı, Azərbaycan Prezidenti cənab İlham Əliyev ölkədə dini etiqad azadlığının təminatçısı və himayəçisi kimi qəbul edilir.

Azərbaycan ərazisində müxtəlif etnik qrupların yaşadığı günümüzün reallığıdır. Heç kəsə bu vaxta qədər milli mənsubiyyətinə görə bir söz deyilməyib, əleyhində hansısa addımlar atılmayıb, milli və bəşəri dəyərlərə hər zaman böyük hörmətlə yanaşılıb və yanaşılmaqdadır. Din-dövlət münasibətlərinin düzgün qurulmasını şərtləndirən tolerantlıq Azərbaycanda dövlət səviyyəsində dəstəklənir. Bununla yanaşı, müxtəlif dini, etnik mənsubiyyətə malik insanlar özlərini cəmiyyətimizin ayrılmaz tərkib hissəsi sayır, dövlətin diqqətini, qayğı və himayəsini eyni dərəcədə hiss edir, onlar da dövlətimiz üçün, Azərbaycanımız üçün əllərindən gələni əsirgəmirlər. Biz bunun 44 günlük müharibə zamanı da şahidi olduq. Şahidi olduq ki, ölkəmizin ərazisində məskunlaşan fərqli milli-etnik qrupların nümayəndələri Azərbaycan naminə canlarından keçməyə hazır olduqlarını bəyan etdilər və müharibədə ürəkdən iştirak etdilər, Azərbaycanın qələbəsi naminə öz töhfələrini verdilər, Zəfərimizə görə hamı kimi sevindilər.

Baxmayaraq ki, separatçı ermənilər tərəfindən bu vaxta qədər xalqımıza qarşı etnik təmizləmə siyasəti yürüdüldüyü, Xocalı faciəsi kimi soyqırımlara imza atıldığı, haqsız və qanunsuz olaraq Azərbaycana qarşı torpaq iddiası qaldırıldığı halda, ən qısa zamanda layiqli cavabları verildiyi halda, yenə də qonşu dövlət kimi Ermənistana sülh təklifi edilib. Bütün bunlar isə, öz növbəsində, Azərbaycanın tolerant, sülhsevər ölkə olduğunu təsdiqləyir. Məqsəd isə təbii ki, birmənalı şəkildə sülhün, əmin-amanlığın, təhlükəsizliyin təmin olunmasıdır. Deməli, dini və milli tolerantlıq, millətlərarası münasibətlərin inkişaf etdirilməsi öz aktuallığını qoruyur.

***İnam Hacıyev***

SON SƏHİFƏ

# Səs

20 avqust
2022-ci il

# Atanın övladına öyrətməli olduğu məqamlar



***Cəmiyyətdə uşaq tərbiyəsindən söz düşən zaman, ilk olaraq analar yada düşür. Çox təəssüf ki, atanın tərbiyədəki rolundan bəhs olunmur. Halbuki, atanın da övlad tərbiyəsində mühüm vəzifələri vardır ki, gərək onların vaxtında yerinə yetirsin.***

Əmirəl-möminin (ə) də bir ata idi və böyük oğlu İmam Həsənin (ə) və İmam Hüseynin (ə) tərbiyəsi ilə özü xüsusilə məşğul olmuşdur.

Əziz İmam (ə) buyurur: "Oğlum! Dünyanın xahişləri və dəyişiklikləri sənə hücum etməzdən əvvəl, mən əxlaqi dəyərləri və fəzilətləri sənin üçün göstərmişəm və saymışam. Çünki yeniyetmənin qəlbi torpaq kimi əkilməyə hazırdır ki, hər nə toxum səpsən - qəbul edəcəkdir. Ona görə də qəlbin sərtləşməzdən, fikrin, ağlın başqa şeylə məşğul olmazdan əvvəl, sənin tərbiyəndə tələsmişəm.

Oğlum, bu, düzdür ki, mən keçmişdəkilər qədər yaşamamışam, ancaq onların rəftarına nəzər salmışam və xəbərləri barəsində düşünmüşəm. Sanki onlardan biri kimi olmuşam. Bəlkə onların tarixini mütaliə edən zaman, ömürlərinin əvvəlindən axırına qədər onlarla olmuşam.

Ona görə də həyatlarının aydın dövrlərini zülmətli dövrlərindən tanımışam. Onların faydalı həyatını və ziyanlı həyatını araşdırmışam. Sonra onların ən mühüm və dəyərlisini, hər hadisənin gözəl və şirin tərəflərini sənin üçün seçmişəm.Tanınmamışları isə uzaqlaşdırmışam. Ona görə də hər bir mehriban ata kimi ki, övladının yaxşılığını istəyir, mən də bu qərarda olmuşam ki, səni yaxşı tərbiyə edəm".

İmam Əlinin (ə) nəzərinə görə, ata övladının əxlaqi, mənəvi, fikri, etiqadi mövzularını təlim etməkdə məsuldur. Eyni zamanda övladına təcrübə toplamağın yolunu və başqalarından ibrət götürməyi öyrətməlidir. Ata çalışmalıdır ki, övladı bir şəxsiyyət kimi tərbiyə ala bilsin və zillətə boyun əyməsin, izzət sahibi olsun.

Əgər cəmiyyətə həm ruhi və həm də etiqadi cəhətdən sağlam övlad təhvil vermək istəyirsinizsə, əziz İmamın (ə) tövsiyələrinə diqqət edin ki, dünya və axirətiniz üçün faydalıdır.

# Ajda Pekkan etiraf etdi



***İllərdir həm gündəlik geyimi, həm də səhnə tərzi ilə adından söz etdirən Ajda Pekkanın qarderobunda tarixçə olduğu ortaya çıxıb. SİA xarici mətbuata istinadən xəbər verir ki, 16 yaşından səhnədə olan Ajda Pekkan illərdir geyindiyi ən özəl geyimləri hələ də saxlayır. Pekkan yaxın ətrafına "Hamısının yeri mənim üçün çox xüsusi və ayrıdır. Verməyə dözə bilmirəm" deyir.***

***Ayşən Vəli***

# "Qarabağ"ın Çexiyaya səfər proqramı açıqlanıb




***UEFA Çempionlar Liqasının pley-off mərhələsinin cavab oyununda "Viktoriya" (Plzen) komandası ilə qarşılaşacaq "Qarabağ"ın Çexiyaya səfər proqramı açıqlanıb.***

SİA klubun rəsmi saytına istinadən xəbər verir ki, "köhlən atlar" avqustun 22-də Plzen şəhərinə yollanacaq. Ağdam təmsilçisini Praqaya aparacaq təyyarə saat 09:30-da Heydər Əliyev Beynəlxalq Aeroportundan yola düşəcək.

Avqustun 22-si Bakı vaxtı ilə saat 21:30-da "Qarabağ"ın baş məşqçisi Qurban Qurbanovun mətbuat konfransı baş tutacaq. Yarım saat sonra isə matçın keçiriləcəyi "Dusan Arena"da komandanın media üçün açıq məşqi (ilk 15 dəqiqəsi) gerçəkləşəcək.

Qeyd edək ki, avqustun 23-də keçiriləcək "Viktoriya" - "Qarabağ" oyunu Bakı vaxtı ilə 23:00-da baş tutacaq. Bakıdakı ilk matçda hesab açılmayıb.

***Banuçiçək Hüseynli***

# Mürəbbələrin şəfaverici xüsusiyyətləri



Yay aylarında evdar xanımlar qışa hazırlıq üçün mürəbbə tədarük edirlər. Hazırlanan mürəbbələr içərisində moruq, heyva və zoğal mürəbbəsi şəfaverici xüsusiyyətlərinə görə seçilir. Onu da qeyd edək ki, xroniki qaraciyər və öd kisəsi xəstəliyi olanların həmin mürəbbələrdən az istifadə etməsi məsləhət görülür.

SİA AZƏRTAC-a istinadən həmin mürəbbələrin faydalı xüsusiyyətləri haqqında məlumat verir.

Moruq mürəbbəsi ürək-damar xəstəliklərinin qarşısını alan S vitamini baxımından zəngindir. Araşdırmalar göstərir ki, gündəlik S vitamininin qəbulu infarkt və insult kimi ürək-damar problemləri riskini azaldır. Moruq mürəbbəsi immun sistemini möhkəmləndirir, vitamin çatışmazlığının qarşısını alır, iltihab və mikrob əleyhinə təsiredici gücə malikdir, iltihabı azaltmağa kömək edir və hərarəti salır.

Heyva mürəbbəsini həkimlər xüsusilə vərəm xəstələri üçün tövsiyə edir. Həmin mürəbbə ürək-damar sistemi və qalxanvarı vəz üçün də faydalıdır. Norveçli alimlərin apardıqları araşdırmalar göstərir ki, xərçəng əleyhinə xüsusiyyətlərə malik olduğu sübut olunan heyva mürəbbəsi bədxassəli şiş hüceyrələrinin çoxalmasının qarşısını alır. Heyva təbii antibiotikdir, qanı təmizləyir, xəstəliklərdən sağaldır və orqanizmi yoluxucu xəstəliklərdən qoruyur. Bundan başqa bağırsaqları təmizləyir və həzm sistemini yaxşılaşdırır.

Soyuqdəymənin qarşısını alan vasitələr sırasında ağla ilk növbədə zoğal mürəbbəsi gəlir. S vitamini ilə zəngin olan zoğal soyuqdəymə ilə yanaşı damarları möhkəmləndirir, onların elastikliyini qoruyur, böyrək daşı xəstəlikləri zamanı kömək edir. Bundan başqa sidik yolları iltihabı zamanı zoğal və onun yarpaqları sidikqovucu və iltihab əleyhinə vasitə kimi istifadə olunur. Ümumiyyətlə, zoğal iltihab, bakteriya və virus əleyhinə təsiredici gücə malikdir. Ona görə də mürəbbələrin şəfaverici xüsusiyyətlərini nəzərə alıb onlardan mütəmadi istifadə etmək tövsiyə olunur.

# Yaponiya hökuməti gənclərə daha çox içki içməyi öyrədəcək şəxsi axtarır



Yaponiyanın vergi hökuməti gəncləri daha çox spirtli içki qəbul etməyə inandırmaq barədə ən yaxşı ideya üçün müsabiqə elan edib.

Milli.Az oxu.az-a istinadən xəbər verir ki, "Sake Viva" müsabiqəsi sentyabrın əvvəlinə qədər davam edəcək.

20-39 yaş arası iştirakçılar yeni məhsullar və dizaynlar, eləcə də evdə içmək motivasiyasını artırmaq yolları təqdim etməlidirlər.

Yerli nəşrlərin iddialarına görə, bu təşəbbüsün səbəbi demoqrafik dəyişikliklər, koronavirus pandemiyası və ümumiyyətlə, həyat tərzinin dəyişməsi səbəbindən alkoqol sənayesindən vergi daxilolmalarının azalması olub.

**Baş redaktor:**
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri,**
**Üzeyir Hacıbəyov küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3300**